www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 17 iyul 2024-cü il Çərşənbə № 123 (8496) Qiyməti 60 qəpik

**Xəbər**

## Xaricdəki vətəndaşlarımızın nikaha girməsi ilə bağlı yeni qayda

yazısı səh.3-də

# ŞOK: PENTAQON TƏLİMATÇISI İRƏVANDA OTURACAQ! - ERMƏNİSTAN REVANŞA HAZIRLANIR?

Qərb İrəvana bölgəni qarışdırmaq sifarişi verə bilər; **ekspert:** "Bu addımlar kapitulyant ölkəyə baha başa gələcək..."

yazısı səh.8-də



## "YAP-ın namizədlər siyahısı partiya sədrinə təqdim edilib" - bu gün...

Nəzərlər hakim partiyada; bəzi tanınmışlar dairələrini elan etdilər, aralarında heç vaxt deputat olmayanlar da var

yazısı səh.4-də

**Gündəm**

### Azərbaycan Aşuranı qeyd etdi



Kərbəla şəhidləri anıldı; qanvermə aksiyalarında izdiham yaşandı

yazısı səh.3-də

### Prezident təyyarəsini müşayiət edən qırıcılar... bizim hərbi arsenalda da olacaq

yazısı səh.7-də

### Genofondumuz risklə üz-üzə - quru rəqəmlərin arxasındakı təhlükə

yazısı səh.13-də

### Azərbaycan Ordusu rəhbərliyində ixtisar - Türkiyə modelinə keçid bitir

yazısı səh.6-da

### İrəvanda panika: "Tramp Bakı ilə işləyəcək..."

yazısı səh.4-də

### Qışda dəm qazı, yayda Xəzər - dənizdəki görünməz təhlükə bu imiş

yazısı səh.2-də

### ÜDM artıb, neft, kartof, taxıl istehsalı isə... - 6 ayın iqtisadi yekunu

yazısı səh.10-da

### "Böyük Ermənistan" ideyasını əsassız sayan məşhur erməni - Mikoyan haqda bilmədiklərimiz

yazısı səh.12-də

### Həbsdəki icra başçısı yarım milyonu ödəməyibmiş - məhkəmə işi

yazısı səh.11-də

### "Kiyev can hayındadır, Moskva qələbə, Vaşinqton quyruq axtarır..."

yazısı səh.14-də

### "Qiyməti qaldıran onlardır..." - Eyyub Hüseynov ad çəkdi

yazısı səh.3-də



*Tofiq Zülfüqarov:*

### "Pezeşkianın azərbaycanlı olması faktını şişirtmək lazım deyil"

yazısı səh.5-də



### Paşinyanı Bakıya "gətirəcək" o sənəd...

yazısı səh.9-da



### Hüseynbala Mirələmov oğluna görə mətbuatı hədələdi

yazısı səh.11-də



## Zakir Həsənov Qazaxıstana getdi

**Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov Qazaxıstanın müdafiə naziri general-polkovnik Ruslan Jaksılıkovun dəvəti ilə Birləşdik-2024 beynəlxalq əməliyyat-taktiki komanda-qərargah təlimini izləmək üçün qardaş ölkəyə səfər edib.**

Bu barədə Musavat.com-a Müdafiə Nazirliyindən bildirilib.

Qeyd edilib ki, Aktau Beynəlxalq hava limanında general-polkovnik Z.Həsənovu qazaxıstanlı həmkarı general-polkovnik R.Jaksılıkov qarşılayıb.

Hava limanında təşkil edilən rəsmi qarşılanma mərasimində müdafiə nazirləri fəxri qarovulun önündən keçiblər. Nümunəvi hərbi orkestrin müşayiəti ilə hər iki ölkənin dövlət himnləri səsləndirilib.

Müdafiə naziri səfər çərçivəsində Birləşdik-2024 təliminin "Oymaşa" təlim poliqonu və Xəzər dənizinin akvatoriyasının Tokmak burnunda icra ediləcək epizodlarını izləyəcək.



## Həlak olan hərbçimizə şəhidlik statusu verilə bilər

**Ötən gün bədbəxt hadisə nəticəsində həlak olan hərbi qulluqçu Yunis Vasif oğlu Abbasova şəhidlik statusu hərbi hissə tərəfindən təqdim edilən müvafiq arayış əsasında veriləbilər.**

Musavat.com xəbər verir ki, bunu Report-a Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin İctimaiyyətlə İş və Beynəlxalq Əlaqələr şöbəsinin rəisi Pərviz Sədrəddinov deyib.

"Həyatını itirən Azərbaycan Ordusunun hərbi qulluqçusuna şəhidlik statusu hərbi hissə tərəfindən təqdim edilən bildiriş əsasında verilir. Belə bildiriş daxil olarsa, şəhid statusu veriləbilər", - deyə o qeyd edib.

Qeyd edək ki, srağagün Azərbaycan Ordusunun hərbi qulluqçusu Yunis Vasif oğlu Abbasov baş vermiş bədbəxt hadisə nəticəsində həlak olub.



## Masallıda körpə doğuş zamanı ölüb

**Masallıda körpə ölümü qeydə alınıb. Məlumata görə, rayonun Böyük Təklə kənd sakini 2007-ci il təvəllüdlü Səfurə Elvin qızı Qubadova doğuş üçün Masallı rayon mərkəzi xəstəxanasının ginekologiya və doğum şöbəsinə müraciət edib (APA).**

Ananın müayinəsi aparılıb və Lənkəran regional Perinatal Mərkəzə göndərilib. Lənkəranda bildiriblər ki, doğuş təbii yolla olmalıdır və Lənkəranda qalmağı məsləhət görülüb. Özünü yaxşı hiss etdiyini deyən ana yenidən Masallıya qaytarılıb. Ötən səhər ağrıları olan S. Qubadova doğuşa götürülüb. Doğuş zamanı çəkisi 2,8 kq olan ölmüş qız uşağı dünyaya gəlib. Yaxınları bildirir ki, uşağın ölümünə səbəb həkim səhlənkarlığıdır.

Hazırda faktla bağlı rayon prokurorluğunda araşdırmalara başlanılıb.

# Qışda dəm qazı, yayda Xəzər - dənizdəki görünməz təhlükə bu imiş...



**Dənizdə baş verən boğulma hadisələri artıq yay fəslinin faciəsinə çevrilib. Demək olar ki, hər il analoji hadisələr yaşanır. İllər keçdikcə Xəzər dənizi sanki daha çox insanı öz ağuşuna alır.**

Bir çoxları bunun səbəbini məsuliyyətsizlik, laqeydliklə əlaqələndirib, qoyulan qaydalara əməl etmədikləri üçün insanları günahlandırır. Ancaq bir qisim şəxslər də var ki, batmağa səbəb kimi dənizin dibində olan zəlzələ çuxurlarını göstərir.

Musavat.com xəbər verir ki, **Geologiya və Geofizika İnstitutunun şöbə müdiri, elmlər doktoru Qulam Babayev** "Yeni Sabah"a açıqlamasında zəlzələnin dənizdə yaratdığı çuxurların bu hadisələrlə əlaqəsini izah edib: "Seysmoloq olaraq müşahidə etmişəm ki, son illər 2023-cü ildən etibarən Xəzər dənizində zəlzələnin baş verməsi kəskinləşib və aktiv şəkildə özünü büruzə verir. 2024-cü ilin sonuna qədər belə davam edəcək.

Ümumiyyətlə isə Xəzər dənizi çox mürəkkəb tektonikliyə malikdir. Burada bir neçə qırılmalar, tektonik pozuntular, qırışıqlar, xırda miqyaslı tektonik hərəkətlər mövcuddur. Təbii ki, zəlzələlərin tez-tez baş verməsi Xəzərin dibinə də öz təsirini göstərir. Son zamanlar dənizin suyunda enmə müşahidə olunur. Enməyə səbəb kimi bir neçə versiya göstərilir ki, parlama, iqlim dəyişikliyi və s. proseslərlə əlaqələndirilir".

**Ekspert insanları dənizdə riskli hərəkətlər etməməyə səsləyib:** "Bir seysmoloq kimi mən mövcud vəziyyəti Xəzər dənizinin dibinin dəyişməsi ilə əlaqələndirirəm. Çünki dənizin dibi son illər aktiv hərəkətdədir və burada yerdəyişmələr mövcuddur. Həmçinin çuxurlar da əmələ gəlir. Bu, həm dərinliklər, həm də səthə yaxın ərazilər üçün keçərlidir. Bu səbəbdən əhali çox ehtiyatlı davranmalıdır. Tövsiyə olunan və təhlükəsiz ərazilərdə üzməlidir. Unutmaq olmaz ki, Xəzər dənizində çuxurlar mövcuddur. Hətta icazə verilən səthi yerlərdə belə çuxurlar çoxdur. Əhalini ehtiyatlı olmağa və çox riskli hərəkətlər etməməyə çağırıram. "Bura dayazdır, bir az da üzərək qabağa gedim" deyib çox da uzaqlaşmasınlar. Çuxurlarla üzləşə bilərlər və belə olduqda onların həyatını xilas etmək təəssüf ki, mümkün olmur".

## Bağçalara uşaqların qeydiyyatı başladı

**İyulun 16-da dövlət məktəbəqədər təhsil müəssisələrinə ərizələrin onlayn qeydiyyatına başlanıb. Bu barədə Elm və Təhsil Nazirliyinin yaydığı məlumatda deyilir.**

Bildirilib ki, məktəbəqədər təhsil müəssisələrinə uşaqların qəbulu www.bq.edu.az ttps://www.bq.edu.az/ elektron sənəd qəbulu sistemi vasitəsilə aparılır.

"Uşaqların təhsil müəssisəsinə növbəyə yazılma prosesi regional təhsil idarələri və Naxçıvan Muxtar Respublikası üzrə 19 iyul, Bakı şəhəri üzrə isə 26 iyul tarixindən baş tutacaq. Təhsil müəssisəsinə yeni qəbul olunmuş uşaqlar qrupların komplektləşdirilməsi prosesi başa çatdıqdan sonra cari ilin sentyabrın 1-dən etibarən tədrisə başlaya bilərlər".

Qeyd edilib ki, boş yerlərə qəbul il ərzində aparılacaq.

## İli köhnə olan avtomobilləri taksi kimi qeydiyyatdan keçirmək mümkündür? - rəsmi

**Sosial şəbəkələrdə taksi fəaliyyəti ilə məşğul olmaq istəyənlər üçün maşınları pulla qeydiyyatdan keçirən səhifə açılıb. Hətta ili 1995-96 olan nəqliyyat vasitələrini də qeydiyyatdan keçirmək mümkündür. Həmin şəxs etdiyi işə tam zəmanət verdiyini də qeyd edib. Xezerxeber.az-n məlumatına görə, qeydiyyat edən şəxs deyib ki, müraciət edən vətəndaş ölkəmizdə fəaliyyət göstərən məşhur taksi şirkətlərindən birində çalışa bilər.**

Adıçəkilən taksi şirkətindən bildirilib ki, hesabın sərvislə heç bir əlaqəsi yoxdur. Sistemdə avtomobilin yaşını və qanunun tələblərinə uyğunluğunu izləməyə imkan verən tədbirlər mövcuddur. Ekspertlər isə xəbərdarlıq edirlər ki, hazırda taksi kimi fəaliyyət göstərə bilməyən şəxslər bu yollarla aldana bilərlər.

Məsələ ilə bağlı Azərbaycan Yerüstü Nəqliyyat Agentliyindən (AYNA) bildirilib ki, köhnə olan avtomobillərin taksi fəaliyyəti üçün qeydiyyatdan keçirilməsi ilə bağlı sosial şəbəkə hesabları üzərindən yayılan məlumatlar həqiqəti əks etdirmir. Vətəndaşlara belə elanlara inanmamağı və şəxsi məlumatlarını təqdim etməməyi tövsiyə edirik.



## Arvadını çəkiclə döyən kişi həbsdə öldü

**Azərbaycanda daha bir məhkum həbsdə ölüb.**

Musavat.com Lent.az-a istinadla xəbər verir ki, hadisə Penitensiar xidmətin Bakıdakı cəzaçəkmə müəssisəsində qeydə alınıb.

Orada cəza çəkən məhkum İlqar Məhərrəm oğlu Piriyev dünyasını dəyişib. Onun xəstəlikdən öldüyü bildirilir.

Qeyd edək ki, İlqar Piriyev arvadını çəkiclə döyməkdə təqsirli bilinərək həbs edilmişdi. Məhkəmə onu 11 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum etmişdi.



## Bu günün havası: leysan, dolu...

**İyulun 17-də Azərbaycanın bəzi bölgələrində yağış yağacağı gözlənilir.**

Bu barədə Musavat.com-a Milli Hidrometeorologiya Xidmətindən məlumat verilib.

Bildirilib ki, sabah Bakıda və Abşeron yarımadasında hava şəraitinin yağmursuz keçəcəyi gözlənilir. Şimal-qərb küləyi gündüz şimal-şərq küləyi ilə əvəz olunacaq. Havanın temperaturu gecə 21-26° isti, gündüz 32-37° isti olacaq. Atmosfer təzyiqi normadan aşağı 758 mm civə sütunu olacaq. Nisbi rütubət gecə 60-65 %, gündüz 40-45 % olacaq.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi dağlıq ərazilərdə arabir yağış yağacağı, şimşək çaxacağı ehtimalı var.

Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 20-25° isti, gündüz 33-38° isti, bəzi yerlərdə 40°-dək isti, dağlarda gecə 12-17° isti, gündüz 21-26° isti olacaq.

İyulun 18-20-də əsasən dağlıq və dağətəyi rayonlarda fasilələrlə yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Bildirilib ki, sözügedən tarixlərdə bəzi yerlərdə (Balakən-Şəki, Quba-Qusar, Dağlıq Şirvan, Qazax-Gəncə, Daşkəsən-Gədəbəy, Şərqi Zəngəzur) yağıntıların leysan xarakterli olacağı ehtimalı var. Çaylarda sululuğun artacağı, Böyük və Kiçik Qafqazın bəzi dağ çaylarından qısamüddətli daşqın və sel keçəcəyi ehtimalı var.

# Azərbaycan Aşuranı qeyd etdi

## Kərbəla şəhidləri anıldı; qanvermə aksiyalarında izdiham yaşandı

**İyulun 16-da Azərbaycanda Aşura mərasimləri keçirilib. Ölkə müsəlmanları Kərbəla şəhidlərinin xatirəsini hörmətlə yad ediblər. Bu münasibətlə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Qafqaz Müsəlmanları İdarəsinin müəyyən etdiyi ünvanlarda (ali təhsil müəssisələri, xəstəxana, məscid və ziyarətgahlar) qanvermə aksiyaları təşkil edilib.**

"Səhiyyə Nazirliyinin və Qafqaz Müsəlmanları İdarəsinin təşkilatçılığı ilə "Aşura günü qana ehtiyacı olan xəstələrə yardım məqsədilə könüllü qanvermə aksiyaları keçirilib".

Bu barədə "Yeni Müsavat"a Səhiyyə Nazirliyindən məlumat verilib.

**Bildirilib ki, qanvermə aksiyaları ölkənin 27 şəhər və rayonu üzrə 35 müxtəlif ünvanlarda keçirilib:** "Aksiyalar səhər 9:00-dan başlanıb. Saat 12:00-a olan məlumata əsasən, Bakı şəhəri üzrə 815, respublikanın digər şəhər və rayonları üzrə isə 542 nəfər könüllü olaraq qan verib. Bu şəxslərdən ümumilikdə 611 litr qan tədarük olunub".

Qafqaz Müsəlmanları İdarəsində qanvermə aksiyası keçirilib. Ölkəmizdə fəaliyyət göstərən dini konfessiyaların rəhbərləri və millət vəkilləri aksiyada iştirak ediblər.

**Jurnalistlərə açıqlamasında Qafqaz Müsəlmanları İdarəsinin sədri (QMİ) şeyxülislam Allahşükür Paşazadə söyləyib ki, builki Məhərrəm ayı xüsusi əhəmiyyət daşıyır:** "Suverenliyimiz tam bərpa olandan sonra birinci dəfədir ki, biz Aşura mərasimi, həmçinin qanvermə aksiyası keçiririk".

**Aşuranın əhəmiyyətini diqqətə çatdıran Şeyx qeyd edib ki, Azərbaycan xalqı bu tarixi hadisədən dərs almalıdır.** "Biz İmam Hüseyn məktəbindən dərs almalı, öz torpağımız, Vətənimiz yolunda can verməyə, qan tökməyə hazır olmalıyıq. Allah bizə elə bil xasiyyət verib ki, biz hər zaman bu kimi məsələlərdə Liderimizin başçılığı ilə bir olmağı bacarırıq", - deyə QMİ sədri vurğulayıb.

**QMİ sədri mərasimlərində qan çıxartmanın, insanın özünə zərər verməsinin qəbuledilməz olduğunu deyib:** "İnsanlar ibadətlərini bu cür etməli deyillər: "Belə mərasimlərdə qan çıxartmaq, özünə zərər vermək qəbuledilməzdir", - A.Paşazadə bildirib və əlavə edib ki, bu cür ayinlərin yerinə qanvermə aksiyalarında fəallıq göstərmək daha məqsədəuyğundur: "Mən insanları belə əməllərə dəvət edirəm".



**İlahiyyat üzrə fəlsəfə doktoru, deputat Ceyhun Məmmədov bizimlə söhbətdə ötən gün qanvermə aksiyasında iştirak etdiyini deyib:** "Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin təşəbbüsü və təşkilatçılığı, Gənclər Fondu, Milli QHT Forumu, Azərbaycan Könüllü Təşkilatları İttifaqının dəstəyi ilə Azərbaycan İlahiyyat İnstitutunda keçirilən qanvermə aksiyasında deputat həmkarım, **"Qərbi Azərbaycan İcması"nın rəhbəri Əziz Ələkbərli** ilə birlikdə iştirak etdik. Bu aksiyalarda iştirakla vətəndaşlarımız həm dini baxımdan, həm də çox sayda insanın qana ehtiyacını ödəməklə böyük savab qazana bilərlər".

**Deputat Məhərrəm ayının fəzilətlərindən də bəhs edib:** "Aşura hadisəsi dünya tarixində böyük faciələrdən biri olmaqla yanaşı, İslam tarixində dönüş nöqtəsi və bir qəhrəmanlıq salnaməsidir. İnsanların ali dəyərlər uğrunda özünü qurban verməsinin ən bariz nümunələrindən biridir. Heç şübhəsiz, İslam Peyğəmbəri Həzrət Məhəmmədin (s) nəvəsi Həzrət Hüseynin (ə) övladları və yaxınları ilə birlikdə şəhid olmaları İslam tarixində dərin iz buraxıb. Aşura eyni zamanda Azərbaycan tarixi, mədəniyyəti, poeziyası və musiqisinin formalaşmasında mühüm yer tutub, klassik ədəbiyyata ciddi təsir göstərib. Bu mənada Aşura sıradan bir dini-tarixi hadisə deyil, müsəlman dünyasında, xüsusən də Azərbaycan tarixində müstəsna yeri olan fenomendir.

Azərbaycan tarixində Məhərrəmlik ayının və Aşuranın xüsusi yeri var. Azərbaycan xalqı hər il bu hadisələrin ildönümünü yüksək səviyyədə keçirir. Bu ənənələr Azərbaycanda xalqımız tərəfindən daima yaşadılıb. Onu da unutmamalıyıq ki, İmam Hüseynin (ə) mübarizəsi ədalətin bərpası üçün idi. Burada bizim alacağımız bir çox dərslər var. Bu, Vətən, haqq, ədalət uğrunda canından belə keçməyə hazır olmaq məsajıdır. Biz o dövrdə baş verən hadisələrdən nəticə çıxararaq, Vətənimizin, torpaqlarımızın bütövlüyü və müstəqilliyi uğrunda hər an canımızdan keçməyə hazır olmalıyıq. Necə ki, bunu Vətən müharibəsi zamanı etdik.

Onu da qeyd edək ki, bu gün ayrı-ayrı ölkələrdə bu mərasimlər baş yarmaq və qan çıxarmaqla qeyd edilir. Azərbaycanda bununla bağlı nümunəvi model ortaya qoyularaq, hər il qanvermə aksiyaları keçirilir. Yəni insanlar qan çıxarmaq əvəzinə, qan verməklə bu aksiyalarda iştirak edirlər. İnanırıq ki, hər il olduğu kimi, bu il də insanlarımız Məhərrəmliyi və Aşura mərasimlərini onun həqiqi mahiyyətinə və ruhuna uyğun keçirəcəklər. Allah bütün şəhidlərimizə rəhmət eləsin".

Yeri gəlmişkən, ötən gün Azərbaycan Prezidenti İlham Əliyev "Respublika Qan Bankı" publik hüquqi şəxsin yaradılması barədə Fərman imzalayıb. Sənədə əsasən, müəyyən edilib ki, Qan Bankı qan və qan komponentlərinə olan tələbatın ödənilməsi sahəsində fəaliyyət göstərən, qan və qan komponentlərinin tədarükünü, emalını, yoxlanılmasını, saxlanılmasını və bölüşdürülməsini təmin edən publik hüquqi şəxsdir. Fərmanla Qan Bankının fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirmək üçün sədr də daxil olmaqla, beş üzvdən ibarət Müşahidə Şurası yaradılacaq, bankın fəaliyyətinə cari rəhbərliyi isə icraçı direktor həyata keçirəcək.

Bəs kimlər donor kimi qan verə bilməz?

**İnvaziv ağrı mütəxəssisi Zülfüqar Yusifov "Yeni Müsavat"a mövzu ilə bağlı fikirlərini bölüşüb**: "İlk növbədə qeyd edim ki, bir neçə ildir belə bir aksiyanın həyata keçirilməsi olduqca faydalıdır. Çünki toplanan qan çox sayda xəstənin həyatını qurtarmaq üçün, onları həyata qaytarmaq üçün istifadə olunur, bu olduqca təqdirəlayiq addımdır. Donorlara gəlincə, analizlərdən keçmələridir. Bundan başqa, bir sıra hemotoloji xəstəliklər var ki, bunlar da istisna edilməlidir. Eyni zamanda qan verən adamların özünün səhhəti ilə bağlı problemləri olmamalıdır. Qan azlığı olan insanların qan verməsi onların orqanizmlərində neqativ hallara səbəb ola bilər. Təbii ki, ölkəmizdə bu kimi məsələlər lazımi şəkildə həyata keçirilir. Qanın keyfiyyətli olması şərt, infeksiyaların olmaması mütləqdir".

Sonda onu da qeyd edək ki, hepatit B və C, HİV-("SPİD") daşıyıcıları, sifilis, vərəm kimi xəstəlikləri və qan azlığı olanlar, habelə qan xəstələri, hemoxromotoz (hemoqlobin çoxluğu ), hamilələr, bədən temperaturu 37.5 dərəcədən çox olanlar, narkotik asılılığı olanlar, orqan köçürülməsi olanlar, infarkt keçirənlər, 18 yaşadək və 65 yaşdan yuxarı şəxslər, bədən çəkisi 50 kq-dan az olanlar qan donoru ola bilməz.

❑ **Afaq MİRAYİQ,
"Yeni Müsavat"**

## Xaricdəki vətəndaşlarımızın nikaha girməsi ilə bağlı yeni qayda



**Xaricdəki Azərbaycan vətəndaşlarının nikahla əlaqədar tibbi müayinədən keçmələrinə görə yeni qayda müəyyənləşib.**

Musavat.com xəbər verir ki, bununla bağlı Prezident İlham Əliyev Ailə Məcəlləsinə edilən dəyişikliyi təsdiqləyib.

Belə ki, Azərbaycanın diplomatik nümayəndəliklərində və ya konsulluq idarələrində nikaha daxil olmaq istəyən Azərbaycan vətəndaşları bu Məcəllənin 13.1-ci maddəsində nəzərdə tutulmuş xəstəliklər üzrə tibbi müayinədən öz vəsaitləri hesabına müraciət etdikləri diplomatik nümayəndəliyin (konsulluq idarəsinin) akkreditə olunduğu, yaxud yerləşdiyi xarici dövlətdə seçdikləri tibb müəssisəsində keçə bilərlər.

Habelə Azərbaycanın diplomatik nümayəndəliklərində və ya konsulluq idarələrində nikaha daxil olmaq barədə ərizəyə həmin tibb müəssisələri tərəfindən verilmiş tibbi müayinədən keçdiklərini təsdiq edən sənəd əlavə edilib.



## "Qiyməti qaldıran onlardır..." - Eyyub Hüseynov ad çəkdi

**Paytaxt bazarlarında xiyar və pomidorun qiyməti bahalaşıb. Belə ki, bir neçə gün əvvəl 70 qəpiyə satılan xiyar 1 manat 50 qəpiyə, 1 manata satılan pomidor isə 2-3 manata təklif edilir.**

Musavat.com Bakupost.az-a istinadən xəbər verir ki, **Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov** məsələ ilə bağlı danışıb. O, açıqlamasında bildirib ki, paytaxt bazarı respublikanın digər bazarlari ilə sinxron deyil.

Onun sözlərinə görə, bütün kənd təsərrüfatı mallarının paytaxt bazarlarına - istehsalçıdan istehlakçıya qədər çatdırılma zəncirinin ortasında "Meyvəli bazarı" dayanır: "Paytaxta çatdırılan istənilən meyvə-tərəvəz məhsulu yalnız bu süzgəcdən keçib gəlir. Yəni onların sənədi olmadan heç bir market o malı qəbul etmir. "Meyvəli" bazarında da bazarın üçüncü bir subyekti hökmranlıq edir, malı gətirənlərdən alıb, üstünə sənədi qoyub, paytaxt dükanlarına çatdıran başqa bir alverçi qrupu var".

**Ekspert bu adamların qiymətin dəyişməsində böyük rol oynadıqlarını bildirib:** "Onlar çox asanlıqla qiyməti təyin edirlər və paytaxt bazarına göndərirlər. Yeni qəbul olunmuş Rəqabət Məcəlləsində bu adamlara qarşı müəyyən maddələr var. Düşünürəm ki, qanun qüvvəyə minəndən sonra bu vəziyyət dəyişəcək".

**E.Hüseynovun sözlərinə görə, sadalanan problemlər fərdi kənd təsərrüfatı ilə məşğul olan insanların birbaşa Bakı bazarlarına çıxışını əngəlləyir:** "Çünki onların yetişdirdiyi mallar Bakı bazarının tələbatına uyğun deyil. İkincisi, onlar "Meyvəli" süzgəcindən keçmədikdə Bakı bazarlarına daxil ola bilmirlər. Çünki mağazalar onların mallarını qəbul etmir. Bura illər boyudur Cəlilabad rayonundakı kartof satışı problemini də daxil etmək olar".

# İrəvanda panika: “Tramp Bakı ilə işləyəcək...”



**Trampın xüsusilə Pensilvaniyada seçki mitinqi zamanı sui-qəsd cəhdinə məruz qalması və qulağından yaralanması ilə reytinqinin kəsin artması erməni ictimai fikrində narahatlıqla izlənilir.**

“Sputnik Ermənistan” Trampı aşağılamaqla yanaşı, “güllələnmiş qulağın yeni ABŞ-ın simvolu” olacağı haqda “həyəcanlı” məqalə yayıb (Axar.az).

Bildirilib ki, son sorğuya görə Trampın reytinqi 66%, Baydenin 15%, Kamala Harrisin isə 10%-dir. Bu isə Trampın ABŞ prezidenti olmaq ehtimalını çox yüksəldir. Co Baydeni yalnız “fors-major” xilas edə bilər.

Məqalədə vurğulanıb ki, Tramp prezident olacağı halda Ermənistan üçün yaxşı heç nə gözlənilmir. Çünki Tramp hər şeydən öncə “Amerika amerikalılar üçündür” ideyasının təbliğinə diqqət yetirir ki, bu da respublikaçıların səylərini daha çox daxili problemlər üzərində cəmləşdirmək siyasətində əksini tapıb.

Trampın qlobal neft-qaz sektoruna ciddi önəm verəcəyi və buna görə də Cənubi Qafqazda Azərbaycanı xüsusi dəstəkləyəcəyi ehtimalını irəli sürən müəllifin fikrincə, ABŞ-ın yeni administrasiyası azərbaycanmeyilli olacaq və Türkiyə və Azərbaycanla işləyəcək. Trampın bunun üçün başqa səbəbi də var - İrana sərt münasibəti, israilyönlü olması... İsrail isə Azərbaycanın strateji tərəfdaşıdır.

Məqalədə iddia edilib ki, Trampın “Ermənistanın düşmənlərinin tərəfində olacağına zəmanət verilir”.

Erməni siyasi kəsimində narahatlığın daha bir səbəbi isə odur ki, Tramp “tarazlaşmaya” meylli siyasətçi deyil, ABŞ-ın maraqlarından çıxış edir və birbaşa sözünü deyir. Ona görə də Tramp Azərbaycanla birgə addım atacaq və qətiyyən “balans” saxlamayacaq.

# Bakıda Fransanın müstəmləkə ərazilərindəki müstəqillik hərəkatlarının qurultayı keçiriləcək




**2024-cü ilin 17-18 iyul tarixində Qvadelupanın Azadlığı naminə Xalq Birliyinin təşkilatçılığı və Bakı Təşəbbüs Qrupunun dəstəyi ilə Fransa müstəmləkəçiliyindən əziyyət çəkən Korsika, Melaneziya, Polineziya, Karib və Antil adalar qrupundan olan 15-dən çox siyasi partiya və müstəqillik hərəkatlarının rəhbər şəxslərinin iştirakı ilə Bakıda qurultayı keçiriləcək (APA).**

Qurultayın keçirilməsi ideyası Fransanın dənizaşırı ərazilərinin müstəqilliyi uğrunda mübarizə aparan siyasi partiya və hərəkatlarına məxsusdur. Niderland koloniyaları olan Bonayre və Sən-Martin adalarından 3 təşkilat qurultayın işində fəxri qonaq qismində iştirak edəcək.

İki gün davam edəcək qurultay iştirakçı tərəflərə müstəqillik uğrunda mübarizədə daha sıx təşkilatlanma, habelə vahid platforma yaradaraq Fransa kolonializminə qalib gəlmək yolunda nəticəyönümlü fəaliyyətin əlaqələndirilməsinin yollarını müzakirə etmək imkanı yaradacaq. Həmçinin koloniyaların təmsilçiləri öz müqəddəratını təyin etmək mübarizəsində ən effektiv təcrübə və strategiyalar barədə müzakirələr aparacaq.

Qurultay koloniyalarda Fransa hökuməti tərəfindən bu ərazilərin sahibləri olan yerli xalqlara qarşı törədilən çoxsaylı cinayətlər və qeyri-qanuni hərəkətlər barədə beynəlxalq ictimaiyyətin məlumatlılığının artırılmasına, ümumilikdə XXI əsrin bəlalarından biri olan kolonializm probleminə diqqət çəkməyə töhfə verəcək.

Qeyd edək ki, Bakı Təşəbbüs Qrupu Azərbaycan Respublikasının sədrlik etdiyi Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər toplantısı çərçivəsində 2023-cü il iyulun 6-da Bakıda “Müstəmləkəçiliyin tamamilə aradan qaldırılmasına doğru” adlı konfransın iştirakçıları tərəfindən yaradılıb. Artıq 1 ildir ki, müstəmləkəçilikdən əziyyət çəkən xalqların azadlıq uğrunda apardıqları ədalətli mübarizəyə dəstək verir. Bu xüsusda BTQ tərəfindən artıq 15-ə yaxın beynəlxalq konfrans təşkil edilib. Onlardan 4-ü BMT-nin Nyu-York, Cenevrə və Vyana qərargahlarında, biri Türkiyənin İstanbul şəhərində, digərləri isə Bakı şəhərində təşkil olunub.

# “YAP-ın namizədlər siyahısı partiya sədrinə təqdim edilib”, bu gün...

## Nəzərlər hakim partiyada; bəzi tanınmışlar artıq dairələrini elan ediblər, aralarında heç vaxt deputat olmayanlar da var



**Seçki kampaniyasının 17-ci günüdür. Siyasi partiyaların namizədləri və müstəqil namizədlərin imza vərəqələri əldə etmək üçün DSK-lara sənədlərini təqdim etmələri mərhələsi davam edir. Artıq 500-dən yuxarı namizədə imza vərəqələri verilib və onların bir çoxu imza toplama kampaniyasına start veriblər.**

Məlumata görə, 10 nəfərdən yuxarı iddiaçı imzaları toplayıb imza vərəqələrini DSK-lara təqdim ediblər. Seçki təqviminə görə, namizədliyin irəli sürülməsinin təsdiq olunub-olunmaması qərarı sənədlər dairə seçki komissiyasına təqdim edildən sonra 5 gün müddətində çıxarılmalı, imza vərəqələri verilməlidir. 18 yaşına çatmış ölkə vətəndaşı parlamentin deputatı seçilə bilər. İkili vətəndaşlığı, başqa dövlətlər qarşısında öhdəliyi olan, icra və ya məhkəmə hakimiyyəti sistemlərində qulluq edən, elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla başqa ödənişli fəaliyyətlə məşğul şəxslərin, din xadimlərinin, fəaliyyət qabiliyyətsizliyi məhkəmədə təsdiq edilən, ağır cinayətlərə görə məhkum olunmuş, məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə azadlıqdan məhrumetmə yerlərində cəza çəkən şəxslərin seçilməsi yasaqdır.

Namizədin müdafiəsi üçün onun irəli sürüldüyü seçki dairəsinin ərazisində seçicilərin azı 450 imzası toplanmalıdır. Bir seçicinin birdən artıq namizədin müdafiəsi üçün imza atması mümkündür.

İmza vərəqələrinin DSK-lara təqdim olunması üçün müddət avqustun 2-si saat 18-də bitəcək. İmza vərəqələrinin və başqa sənədlərin yoxlanması, namizədin qeydə alınıb-alınmaması haqqında qərar 7 gün müddətində qəbul edilməlidir. Səsvermə gününə azı 20 gün qalanadək qeydə alınmış namizədlərin seçki dairələri üzrə siyahısı dərc edilməlidir. Təbliğat-təşviqat kampaniyası isə avqustun 9-dan start götürəcək.

Hazırda isə seçkilərlə bağlı əsas nəzərlər həm də hakim Yeni Azərbaycan Partiyasının (YAP) deputatlığa namizədlər siyahısının necə olacağına yönəlib. Hakim partiya hələ ki öz siyahısını ictimaiyyətə təqdim etməyib. Dünən Gununsesi.info saytı məlumat yayıb ki, YAP deputatlığa namizədlər siyahısı hakim partiyanın lideri, Prezident İlham Əliyevə təqdim edilib: “YAP İdarə Heyəti adından partiya sədrinə təqdim olunan siyahı ölkə başçısının yekun rəyindən sonra ictimaiyyətə açıqlanacaq. Yekun siyahının sabah (bu gün, iyulun 17-də - red.) açıqlanacağı deyilir”.

“Yeni Müsavat” xəbər verir ki, artıq bir sıra tanınmış deputatlar namizədliklərini verəcəkləri dairələri açıqlayıblar. Məsələn, 6-cı çağırış **Milli Məclisin İnsan Hüquqları Komitəsinin sədri Zahid Oruc** 33 saylı Xətai 1-ci seçki dairəsindən namizədliyini irəli sürüb. Zahid Oruc bildirib ki, tariximizdə ilk dəfə deputatlığa namizədlərin seçki proqramlarında “Ümumilli problem”, “Qarabağ münaqişəsi”, “Qaçqın və məcburi köçkünlər” adlanan bəndlər yer almayacaq: “14 fevral tarixində inaqurasiya mərasimində dövlət başçısının Yeni Tarixi Mərhələnin bəyanı erkən parlament seçkilərinin izahında əsaslı arqumentdir. Azərbaycan məğlub ölkə əsrindən Qalib ölkə Yüz ilinə qədəm qoyub. Müstəqillik tariximizin ən ağır "Zəfərə qədərki" dövrü sona çatıb, “Zəfərdən sonraki” - qalibiyyət tarixi yazılır. 2024-cü ilin Parlamenti Qarabağın azadlığından sonrakı dövrün bütün partiyaları, hərəkatları və namizədləri Yeni Siyasi Gündəliyin formalaşdırılmasında maraqlı olmalıdır. Elə bir parlamentin seçilməsi zərurətə çevrilib ki, ideoloji dayaqları Ulu öndər ideallarına söykənərək, bütün siyasi baxış və görüşləri özündə birləşdirsin, hakimiyyət orqanları arasında çevik balanlaşdırma yaratsın, xalqla kommunikasiya platformasına çevrilsin və məhz bu milli birliklə ölkəmizə qarşı gözlənilən xarici hücumlara qarşı siyasi sipər olsun".

Milli Məclisin VI çağırış deputatı Vahid Əhmədov da 1 sentyabrda keçiriləcək parlament seçkilərinə namizədliyini irəli sürüb. Bu barədə Axar.az-a o özü məlumat verib. Bildirib ki, 52 saylı Quba seçki dairəsindən yenidən namizədliyini irəli sürüb. V.Əhmədovun namizədliyi artıq təsdiqlənib. O, namizədliyinin qeydə alınması üçün imzatoplama kampaniyasına başlayıb.

**VI çağırış Milli Məclisin deputatı Əli Məsimli də sentyabrın 1-də keçiriləcək parlament seçkilərində yenidən namizəd olmaq istəyir. Bu barədə o, Modern.az-a açıqlamasında bildirib. Qeyd edib ki, əvvəlki seçki dairəsindən namizədliyini irəli sürəcək:** “Təbii ki, seçkilərdə iştirak etmək barədə düşünürəm. Bir az dislokasiyada fərqli olsa da, əvvəlki seçki dairəsindən namizədliyimi verəcəm. Əvvəl Şəkidə dairə vardı: 113 Şəki şəhər, 114 Şəki kənd birinci seçki dairəsi və 115 Şəki kənd ikinci seçki dairəsi. Dislokasiya fərqi oldu. 114-cü seçki dairəsinin bir hissəsi Qaxla birləşdi. Yeni seçki dairəsi əmələ gəldi. Deməl olar ki, bir hissəsi dəyişmək şərtilə əvvəlki seçki dairəsindən 113-cü Şəki şəhər seçki dairəsindən namizəd olacam. Çünki bu seçki dairəsi mənim üçün daha münasibdir. Yaxın günlərdə namizədliyimi rəsmi surətdə təqdim edəcəm”.

Demokratik İslahatlar Partiyasının sədri, deputat Asim Mollazadənin namizədliyi isə rəhbərlik etdiyi partiya tərəfindən 22 saylı Nəsimi-Yasamal Seçki Dairəsindən irəli sürülüb.

**Tanınmış politoloq, “Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu deputatlığa namizədliyini 119 saylı Ağdam seçki dairəsindən irəli sürüb. Elxan Şahinoğlu məlumat verib ki, lazım olan sayda seçici imzalarını cəmi üç günə toplayıb başa çatdırıb:** “Cəmi 3 gün ərzində 500 imzamızı topladıq, dəqiqləşdirmələr aparırıq. Digər sənədlərin də hazırlanmasını növbəti bir neçə gün ərzində bitirərək, 119 saylı Ağdam Dairə Seçki Komissiyasına təhvil verəcəyik. Bu işdə əməyi keçən, mənə dəstək olan, imzalarını əsirgəməyən ağdamlılara təşəkkür edirəm”.

**Azad Vətən Partiyası isə sədr Akif Nağının namizədliyini 124 saylı Şuşa-Ağdam-Xocavənd seçki dairəsindən irəli sürüb.** “30 il ərzində Qarabağ Azadlıq Təşkilatına rəhbərlik etdiyimə görə namizədliyimin Qarabağın bir hissəsindən verilməsi həm də simvolik məna daşıyır”, - Akif Nağı qeyd edib.

❑ **Etibar SEYİDAĞA,
“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 123 (8496) 17 iyul 2024

# "Pezeşkianın azərbaycanlı olması faktını şişirtmək lazım deyil"

## Tofiq Zülfüqarov: "Səfirliyimizin əsas vəzifələrindən biri də o olmalıdır ki..."



**Xəbər verdiyimiz kimi, 15 iyul 2024-cü il tarixindən etibarən Azərbaycan Respublikasının İran İslam Respublikasındakı Səfirliyi yeni ünvanda fəaliyyətini bərpa edib. Xarici İşlər Nazirliyindən verilən məlumata görə, səfir və səfirliyin heyəti İrana geri dönüb.**

Hazırda İrandakı səfirliyin yeni binasında konsulluq xidmətinin təşkili üçün müvafiq işlər görülür və yaxın zamanda konsulluq xidmətinin bərpası barədə əlavə məlumat veriləcək.

Qeyd edək ki, 2021-ci ilin avqustundan etibarən Azərbaycan Respublikasının İran İslam Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsinə təyinat alan Əli Əlizadə də vəzifəsinin icrasına davam edəcək. Yeri gəlmişkən, Əli Əlizadə öz şəxsi Facebook hesabında paylaşım edib. Səfir yazıb: "Səfirliyimizin fəaliyyətinin yeni ünvanda bərpası ilə xidmətimizi davam etdirmək üçün Tehrana qayıtdıq. İnanıram ki, birgə səylərimizlə qarşılıqlı hörmətə, dostluğa və mehriban qonşuluğa əsaslanan Azərbaycan-İran əlaqələrinin daha da möhkəmlənməsinə, əməkdaşlığımızın daha da genişlənməsinə nail olacağıq".

*Sabiq xarici işlər naziri, politoloq Tofiq Zülfüqarovla Azərbaycan-İran münasibətlərinin yeni mərhələsi, gözlənilən növbəti diplomatik addımlar və s. barədə söhbət etdik:*

***- Tofiq bəy, Azərbaycanın İrandakı səfirliyinin fəaliyyəti bərpa edilib. Bunu diplomatik mənada iki ölkə arasındakı münasibətlərdə yeni mərhələ hesab edə bilərikmi?***

- İranın keçmiş administrasiyası hakimiyyətə gələndən sonra iki ölkə arasında gərginlik yaradan bir neçə addım atdı. Hərbi təlimlər, Azərbaycana qarşı bəyanatlar və sonda səfirliyə hücumla iki ölkə arasında münasibətlər xoşagəlməz həddə çatdı. Bu gərginlik də böhrana gətirib çıxardı. Sonrakı mərhələdə tərəflər qarşılıqlı təmaslarla gərginliyi addım-addım aradan qaldırmaq qənaətinə gəldilər. Xarici işlər nazirləri və başqa səviyyələrdə təmaslar oldu.

Demək olar ki, böhran aradan götürülüb. Prezident İbrahim Rəisinin ölümü ilə böhrana son qoyuldu. Ardıcıl şəkildə böhranın fəsadlarını götürmək üçün addımlar atılır. Onlardan biri də səfirliyin fəaliyyətinin bərpasıdır. Məlum olduğu kimi, səfirlik yeni binada fəaliyyət göstərəcək. Bina təhlükəsizlik qaydalarına daha uyğun yerdə yerləşir. Yeri gəlmişkən, bina məsələsi uzun illər idi ki, həllini tapmamışdı. Bu, Azərbaycanın da, İranın da xeyrinə olan addımdır. Biz başa düşməliyik ki, iki ölkə arasında münasibətlər normal vəziyyətdə olmalı, inkişaf etməlidir.

***- Azərbaycanın İrandakı səfirliyinin yenidən fəaliyyətə başlamasının Məsud Pezeşkianın xarici siyasət uğurlarından ilki kimi dəyərləndirənlər var. Siz necə düşünürsünüz, Pezeşkianın qələbəsi iki ölkə arasındakı münasibətlərdə nəyi dəyişəcək?***

- Fikrimcə, bu, süni bağlantıdır. Əminəm ki, yeni prezident münasibətlərin normallaşması istiqamətində fəaliyyətini davam etdirəcək. Bu, həm də İran dövlətinin və xalqının xeyrinədir ki, qonşuluqdakı qardaş Azərbaycan xalqı ilə əlaqələr ən yüksək səviyyədə bərpa olunsun. Biz də bunu istəyirik. Bu, həm də bizim xeyrimizədir.

***- Yeri gəlmişkən, Məsud Pezeşkianın etnik azərbaycanlı olması ilə cənubda yaşayan soydaşlarımızın hüquqlarına münasibətdə dəyişiklik gözlənilir. Nəzərə alsaq ki, İranda bütün mühüm məsələlər Ali dini liderin rəhbərliyi ilə həll olunur, bu gözləntiləri necə dəyərləndirərsiniz?***

- Mən bunu spekulyasiya hesab edirəm. Yetərincə əsası olmayan fikirlər səslənir. Məsud Pezeşkianın azərbaycanlı olması həlledici rol oynamayacaq. Çünki Azərbaycanla münasibətlərdə böhranın aradan götürülməsi və gələcəkdə inkişafının bünövrəsinin qoyulması təkcə azərbaycanlılar üçün yox, İranda yaşayan digər xalqlar və dövlət üçün də lazımdır. Bu baxımdan hesab edirəm ki, yeni prezident dövlətin maraqlarından irəli gələn addımlar atacaq.

Milli mənsubiyyəti nəzərə alsaq, böhranın yaranmasında fəal iştirak edən insanların arasında azərbaycanlı da çox idi. Bu arada səfirliyə terror hücumunu həyata keçirən də etnik azərbaycanlı idi. Bu baxımdan milli mənsubiyyət məsələsini şişirtməmək lazımdır. Dövlət maraqları, dövlət siyasəti var. Hər bir addıma obyektiv qiymət verilməlidir.

***- Sizcə, Azərbaycanın irəli sürdüyü şərtlər tam həllini tapıbmı?***

- Bunu yalnız zaman göstərəcək. İndiki zamanda, sadəcə, qarşılıqlı addımlar atılır. Və bu addımların nəticəsində biz müəyyən mərhələyə çatmışıq. Gələcəkdə hadisələrin necə cərəyan etməsindən asılı olaraq müəyyən münasibət bildirmək olar.

***- İki ölkə arasındakı münasibətlərin normallaşması üçün atılan ilk addım səfirliyin fəaliyyətinin bərpasıdır. Bəs növbəti mərhələ üçün konkret hansı gözləntiniz var?***

- Çoxsaylı ortaq layihələr var ki, onların icrası müxtəlif səbəblərə görə uzanır. Bunlardan ən önəmlisi Şimal-Cənub dəhlizinin işlək vəziyyətə gətirilməsidir. Bu, bizim üçün çox vacib məsələlərdən biridir. Çünki Azərbaycana qarşı olan dairələr Zəngəzur vasitəsilə kommunikasiya dəhlizi yaratmaq istəyirdilər. Amma əminəm ki, buna ehtiyac qalmayacaq. Çünki dağlar arasında dəhliz yaratmaq üçün milyardlarla məbləğ xərcləmək lazım olacaq. Amma yolun tikilməsində maraqlı tərəflər çoxdur. 10-dan çox ölkə dəhlizin istifadə olunmasında maraqlıdır. Dəhlizin işlək vəziyyətinə gətirilməsi ilə Hindistanda Azərbaycana və Türkiyəyə qarşı olan bəzi planlar aradan götürüləcək.

***- Zəngəzur dəhlizindən söz düşmüşkən, Azərbaycan-İran münasibətlərinin yeni mərhələsində Ermənistan hansı addımları ata bilər? Münasibətlərə xələl gətirmək üçün manevrlər yarada bilərmi?***

- İstisna edilmir. Bilirsiniz ki, İranda çox sayda erməni yaşayır. Onların mütəşəkkil diasporu var. Hətta Tehranın mərkəzində onlara aid məhəllə var. Xatırladım ki, onlar Azərbaycana münasibətdə kəskin mövqe tutmuşdular. Ermənistanın baş naziri Nikol Paşinyan İrana səfər edəndə ermənilərlə görüşdə onlar Azərbaycan dövlətçiliyi əleyhinə şüarlar səsləndirmişdilər. Təbii ki, gələcəkdə bunu da nəzərə almaq lazımdır. Eyni zamanda biz onu da yaxşı başa düşməliyik ki, bizim İrandakı dostlarımız düşmənlərdən sayca və imkan baxımından qat-qat güclüdürlər. Odur ki, səfirliyimizin əsas vəzifələrindən biri bizə dost münasibətdə olan dairələri birləşdirib, iki ölkə arasında olan münasibətlərin inkişafına gətirən siyasəti daha da təsbit etməkdir.

**Nigar HƏSƏNLİ,**
**"Yeni Müsavat"**



Metyu Miller

## Dövlət Departamentindən sülh açıqlaması: çətin seçim etməli və...

**"ABŞ Azərbaycan və Ermənistanın sülh sazişi məsələsindəki nailiyyətlərini davam etdirməsi üçün əlindən gələni əsirgəməyəcək".**

Bunu ABŞ Dövlət Departamentinin rəsmi nümayəndəsi Metyu Miller ənənəvi brifinqdə deyib.

Bununla belə, o, təmsil etdiyi qurumun vasitəçiliyi ilə Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasındakı görüşün detallarını açıqlamayıb: "Onu deyə bilərəm ki, tərəflər sülh sazişinin əldə olunması istiqamətində uzun yol qət edib. Biz isə bundan sonra da bu müzakirələrin davamını təşviq edəcəyik. Hər iki dövlətin imzalayacağı sülh müqaviləsi həm onların özünə, həm də regionda təhlükəsizliyə fayda verə bilər. Biz hesab edirik ki, sülh razılaşmasının imzalanması üçün tərəflər çətin seçim etməli, əsaslı kompromislərə gedilməlidir. Buna görə də biz onlar arasındakı fikir ayrılıqlarının aradan qaldırılması və sülh razılaşmasının əldə olunması istiqamətində çalışacağıq. Vaşinqton görüşündə biz irəliləyiş əldə etsək də, mən təfərrüatları açıqlamaq istəmirəm. Lakin hələlik sülh müqaviləsi imzalanmayıb və biz buna nail olanadək həmin istiqamətdə çalışmağa davam edəcəyik". (APA)



## Tehranla Bakı arasında nə baş verir? - ermənilər təşvişdə

**Azərbaycanla İran arasında münasibətlərdə bir müddət əvvəl hakimiyyətlərin başladığı yumşalma prosesi artıq cəmiyyətlərə sirayət etməkdədir. Azərbaycan və İran prezidentlərinin sərhəddə görüşü ilə açılan yeni səhifə Prezident İbrahim Rəisinin helikopter qəzasında həlak olmasından sonra dalana dirənmədi, əksinə, hər iki tərəf götürülən öhdəliklərə sadiqliyini nümayiş etdirdi.**

Erməni ekspertlər bildirirlər ki, İbrahim Rəisinin həlak olduğu qəzaya Azərbaycan mediası və ictimaiyyətinin həssaslığı, Rəisi ilə bərabər ölənlərə (xüsusilə Təbrizin nüfuzlu imamı) Bakıdan reaksiyalar xalqlar arasında münasibətlərdə də dəyişiklik yaradıb.

İranda keçirilən prezident seçkiləri, Məsud Pezeşkianın prezident seçilməsinə Azərbaycan ictimaiyyətinin qeyri-adi münasibəti, xüsusilə seçkilərin demokratikliyinə heç bir şübhə etməməsi ilə iki dövlətin ictimaiyyəti arasında yaxınlaşmalar da güclənib. Onların müşahidələrinə görə, Azərbaycan mediasında və sosial şəbəkələrində İrana nifrət notları kəskin şəkildə azalıb, bir azərbaycanlının prezident seçilməsinə mane olmadığına görə İran rejiminə münasibət dəyişib və bu baxış İran ictimaiyyətinə də ciddi təsir edib.

Erməni politoloqlar İranın heç də yekcins olmayan cəmiyyətinin bütünlüklə Azərbaycana yanaşmalarında köklü dəyişikliklərdən təəccüblərini gizlətmirlər. Qeyd edilir ki, hətta Azərbaycana münasibətdə hər zaman "hədə" mövqeyindən çıxış edən SEPAH kanallarında da artıq Azərbaycan Respublikasına təhdidlər yox səviyyəsindədir.

Pezeşkianı ilk təbrik edənlər sırasında İlham Əliyevin olması, İran prezidentini Azərbaycana səfərə dəvət etməsi, o cümlədən Tehranda səfirliyin fəaliyyətini bərpa etməsi dövlətin atdığı addımlardır. Ermənistan siyasilərini isə ən çox narahat edən cəmiyyətlərin bir-birinə münasibətinin müsbətə doğru sürətli inkişafıdır. Bunun iki ölkə arasında əlaqələrə daha da təkan verəcəyi, onillərdir Ermənistanı birmənalı şəkildə dəstəkləyən İranın mövqeyindən geri çəkiləcəyinə səbəb olacağı qorxusunu erməni ekspertlər açıq etiraf edirlər (Axar.az).

# Azərbaycan Ordusu rəhbərliyində ixtisar - Türkiyə modelinə keçid bitir

## Hərbi ekspert: "Yaxın zamanda strateji postlarda da islahatlar davam edəcək"

**Xəbər verildiyi kimi, Azərbaycanın Müdafiə Nazirliyinin struktur bölməsinə dəyişiklik edilib. Belə ki, rəsmi olaraq müdafiə nazirinin müavinlərinin sayı azaldılıb.**

Müdafiə nazirinin müavini - Əlahiddə Ümumqoşun Ordunun Komandanı vəzifəsi siyahıdan çıxarılıb. Müdafiə naziri, müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi, müdafiə nazirinin müavini - Quru Qoşunların komandanı, müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin komandanı, müdafiə nazirinin müavini - baş direktor vəzifələri isə yerində qalıb. Nazirlikdən faktı təsdiq ediblər.

Bəs ixtisar hansı zərurətdən doğub və niyə məhz Əlahiddə Ümumqoşun Ordunun Komandanı? Bəllidir ki, Azərbaycan Ordusu Türkiyə modelinə keçidi tərcih edir. Hazırda proses nə yerdədir, son islahat həm də bununla bağlıdırmı?



**AMİP liderinin köməkçisi, politoloq Əli Orucov verilən qərarı Azərbaycan Ordusunda aparılan islahatların tərkib hissəsi sayır:** "Ordunun döyüş hazırlığının daim yüksəldilməsi və ən müasir silahlarla təchiz edilməsi dövlətin qarşısında duran prioritetlərdən biridir. Bu istiqamətdə görülən məqsədyönlü və sistemli fəaliyyət özünü 2020-ci il İkinci Qarabağ müharibəsi zamanı doğrultdu. Bu gün Azərbaycan Ordusu regionun ən güclü ordusudur. Beynəlxalq təşkilatların hesabatlarında da dünyanın ən güclü 50 ordusu sırasında yer alır. Bu çox böyük və uğurlu göstəricidir. Azərbaycan elə bir bölgədə yerləşir ki, ölkənin müdafiə qabiliyyətinin daima inkişafı, gücləndirilməsi tələb olunur. Ermənistan, İran və Rusiya kimi qonşularımızın olması xarici riskləri saxlayır. Azərbaycanın qəbul etdiyi Milli Təhlükəsizlik Konsepsiyasında ölkənin milli maraqlarının müdafiəsində əsas amillərdən biri kimi qeyd edilən ordunun NATO dövlətləri və digər tərəfdaş ölkələrlə qarşılıqlı faydalı əsaslara söykənən ikitərəfli və çoxtərəfli hərbi əməkdaşlığın həyata keçirilməsi, həmçinin NATO dövlətlərinin qüvvələri ilə qarşılıqlı uzlaşan hərbi əməliyyat qüvvələrinin yaradılması, böhranların aradan qaldırılması məqsədilə müvafiq beynəlxalq təşkilatların mandatı əsasında aparılan sülhməramlıların cavab əməliyyatlarında iştirak etmək Azərbaycan Respublikasının müdafiə siyasətinin əsas istiqamətlərindən hesab olunub.

Bildiyiniz kimi, Türkiyə ordusu dünyanın ən güclü orduları sırasında ilk onluqda, NATO-da isə ikinci sıradadır. Azərbaycan Ordusunun istər hərbi texniki təchizat baxımından, istər komanda, rəhbər heyət, istərsə də idarəetmədə Türkiyə modelinə keçməsi mütərəqqi addımdır və bu həm də ölkənin ərazi bütövlüyünün və suverenliyinin qorunması, milli maraqların təmin olunmasında etibarlı təminat deməkdir. Ordu quruculuğu elə bir spesifik və mürəkkəb prosesdir ki, bunu effektiv həyata keçirmək üçün kompleks yanaşma tələb olunur. Ölkənin iqtisadiyyatı və digər resursları möhkəmləndirilmədən ordunu möhkəmləndirmək, onu ən yüksək döyüş hazırlığı vəziyyətinə gətirmək mümkün deyil. Bu, uzun zaman, böyük həcmdə vəsait və təşkilatçılıq bacarığı tələb edir.

Etiraf etmək lazımdır ki, orduda bəzi neqativ halların baş verməsi, ayrılan bəzi vəsaitlərin təyinatı üzrə xərclənməməsi başlanan müasir ordu quruculuğu prosesində müəyyən əngəllər yaradıb ki, bunların aradan qaldırılması mütləq lazım idi. Orduda uzun illər Rusiya təsiri qalmaqdaydı, ali komanda-zabit heyəti əsasən keçmiş SSRİ və Rusiyada təhsil alan şəxslərdən ibarət idi. Artıq Rusiya ordusunda da ciddi islahatlar həyata keçirilir. Müasir dövrün tələbləri və çağırışları, Azərbaycanın dünyada və regionda mühüm aktora çevrilməsi, iqtisadi inkişaf orduda da fundamental islahatlar aparılmasını diktə edirdi.

Ordu hər nə qədər qapalı sahə olsa da, ictimai nəzarət də güclü olmalıdır. NATO ölkələrinin ordusunda ictimai nəzarətə ciddi önəm verilir. Şimali Atlantika Alyansındakı dövlətlərin bir çoxunda orduya rəhbərliyi hərbçi deyil, mülki şəxslər həyata keçirir ki, bu da həm ictimai nəzarətin həyata keçirilməsinə, həm də hökumətlərin ordu ilə təhlükəsizlik siyasətinin effektiv həyata keçirilməsinə geniş imkanlar açır. Azərbaycanda müxtəlif sahələrdə aparılan islahatlar vacib sahə olan ordudan da yan keçməməli idi. Müasir innovasiyalar və texnologiyalar, çevik və mobil idarəetmə mütləq orduda da tətbiq edilməli idi ki, bunlar da sistemli şəkildə həyata keçirilir.

44 günlük İkinci Qarabağ müharibəsi dünya hərb sənətinə yeniliklər və yeni yanaşmalar gətirdi. Azərbaycan döyüş səhnəsində sübut etdi ki, ənənəvi müharibə taktikası, bahalı silahlar real döyüş əməliyyatlarında o qədər də səmərəli olmaya bilər. Deməli, təkcə silah-sursatların, elmi texnologiyaların nailiyyət imkanları ilə bahəm, idarəetmə-komanda heyətinin də sinxron çalışması lazımdır. Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun Komandanın Müdafiə Nazirliyinin ali rəis heyətinin sıralamasından çıxarılması da, məncə, aparılan islahatlarla bağlıdır. Bunun başqa izahını görmürəm".

**Politoloq onu da qeyd etdi ki, Müdafiə Nazirliyinin hazırkı rəhbərliyinə daxil olan şəxslər özlərini vətən qarşısında apardıqları qüsursuz xidmətləri və İkinci Qarabağ müharibəsində təsdiq etmiş peşəkar hərbçilərdir:** "Hesab edirəm ki, onların üzərində böyük hədəflər qoyulub və həmin hədəflərə çatmaq üçün təkcə dövlətin gücü ilə kifayətlənməməli, cəmiyyətin imkanlarından da istifadə olunmalıdır. Ordunun qüdrəti və döyüş qabiliyyəti həm də mənəvi, fiziki və psixoloji hazırlıqdan asılıdır. Azərbaycan Ordusunda qalib ordu kimi bu sadaladığımız faktorların hamısı var. Ordu elə bir sahədir ki, daim inkişaf, dinamizm, çeviklik və dəyişiklikləri tələb edir. Ona görə də hesab etmirəm ki, orduda islahatlar, Türkiyə modelinə keçid tam başa çatıb. Bu proses davamlı aparılır və dövlətin diqqət mərkəzindədir".

**Hərbi ekspert Səxavət Məmməd orduda islahatların davam edəcəyini vurğuladı:** "Model dəyişikliyi o qədər də asan məsələ deyil. İlkin mərhələ olaraq ştat strukturu hazırlandı. Daha sonra isə bunun praktiki olaraq həyata keçirilməsinə start verildi. Müdafiə nazirlərinin müavinləri əvvəllər daha çox idi. Sonra bir çoxu ixtisara salındı və bəziləri Baş Qərargaha tabe edildi. Hesab edirəm ki, Əlahiddə Ümumqoşun Ordunun Komandanının nazir müavini vəzifəsindən çıxarılması da bununla bağlıdır. Məntiqlə Naxçıvandakı Əlahiddə Ümumqoşun Ordunun Komandanının Baş Qərargah rəisi müavin vəzifəsinə gətirilməlidir. Fikrimcə, baş verənlər təkcə ordu ilə bağlı deyil. Naxçıvan Muxtar Respublikasında Azərbaycandakı bütün nazirliklərin eynisi mövcud idi. Vasif Talıbovla bağlı yaranmış vəziyyətdən sonra o nazirliklərin ləğv olunduğunun şahidi olduq. Dolayısı ilə Əlahiddə Ümumqoşun Ordunun Komandanının nazir müavini vəzifəsindən çıxarılması həm də bu prosesin davamıdır.

General-polkovnik Kərəm Mustafayev Naxçıvandakı ordu quruculuğunda çox mühüm rol oynamış bir şəxs idi. O, briqada komandiri, daha sonra diviziya, korpus və Əlahiddə Ümumqoşun Ordunun Komandanı vəzifələrində çalışıb. Naxçıvandakı Ordu sərt intizam qaydaları ilə seçilib. Hətta Kərəm Mustafayevin Baş Qərargah rəisi vəzifəsinə gətiriləcəyi iddia ediləndə, orduda bir çoxları eyni qaydaların bütün orduda tətbiq ediləcəyindən çəkinirdi. Əlahiddə Ümumqoşun Ordusunda problemlər də az deyildi. Bu barədə mediada dəfələrlə yazılar dərc olunub. Kərəm Mustafayevi əvəz edəcək general-mayor Kənan Seyidova gəldikdə isə adı keçən general peşəkar döyüşçüdür. 44 günlük müharibə zamanı müharibənin gedişində general-mayor rütbəsi alıb, Xüsusi Təyinatlı Qüvvələrin Qərargah rəisi vəzifəsinə təyin edilib (müharibəyə qədər vəzifəsinin icraçısı idi). Müharibədən sonra isə Kənan Seyidov Bakı korpusunun komandiri vəzifəsinə gətirildi. Hesab edirəm ki, Kənan Seyidovun Əlahiddə Ümumqoşun Ordunun Komandanı vəzifəsinə gətirilməsi təsadüfi deyil. Düşünürəm ki, orduda islahatlar davam etdiriləcək. Kadr islahatının infrastrukturu (alt yapı) qurulub və strateji postlarda islahatlara başlanılıb. Bu o deməkdir ki, yaxın zamanda strateji postlarda da islahatlar davam edəcək".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**



Cefri Saks

# "ABŞ hegemonluq edir, başqa ölkələrə hörmət etmir" - amerikalı professor

**"Birləşmiş Ştatlar dünyada bir sıra dağıdıcı silahlı münaqişələrə səbəb olub və öz hegemonluğunun bədəlini uduzduğu müharibələrlə və böyük dövlət borcu ilə ödəyir".**

Musavat.com xarici mediaya istinadla xəbər verir ki, bunu Kolumbiya Universitetinin professoru Cefri Saks deyib.

Çinin "Global Times" qəzetinə danışan professor deyib: "1991-ci ildən bəri ABŞ-ın hegemonluq axtarışı təkəbbürlü, yanlış istiqamətə yönəlmiş və özünü məhvedicidir. ABŞ Rusiyadan təslim olmağı tələb etdi. İndi Amerika tərəfi öz təkəbbürünün əvəzini bir neçə müharibə məğlubiyyəti, böyük milli borc və qalib gələ bilməyəcəyi dağıdıcı silahlı münaqişələrlə ödəyir".

Ekspert bildirib ki, ABŞ rəhbərliyinin beynəlxalq arenada hökmranlıq etmək istəyi Əfqanıstan, İraq, Suriya, Liviya, eləcə də Ukraynada müharibələrə səbəb olub. "Hegemonluq məqsədi Sovet İttifaqının dağılmasından bəri ABŞ-ın xarici siyasətində dərin kök salıb. Təəssüf ki, Birləşmiş Ştatlar Rusiya ilə qarşılıqlı hörmət əsasında sülhə razı olmadı", - o əlavə edib.

Saks həmçinin ABŞ dövlət katibi Entoni Blinken və NATO-nun baş katibi Yens Stoltenberqin Çin əleyhinə ritorikasının artmasına diqqət çəkib. "Blinken və Stoltenberq ABŞ-ın hərbi-sənaye kompleksinin, xüsusən də Şimali Atlantika Alyansının dar düşüncəli tərəfdarlarıdır", - deyə Saks vurğulayıb.

"Blinken dövlət katibi kimi şokedici uğursuzluqlarla üzləşir, çünki ciddi diplomatiyaya tam qadir olmadığını sübut edib", - professor bildirib. Onun fikrincə, Birləşmiş Ştatlar Çinə təhlükə kimi baxır. "Çin çox böyükdür, çox uğurludur və buna görə də Amerika hegemonluğuna maneədir. ABŞ Çin üzərində hökmranlıq etmək istəyir. Bu mümkün olmadığından indi Çinə düşmən kimi baxırlar", - professor deyib.

C.Saks Ağ Evin ABŞ-ı dünyanın yeganə super gücünə çevirmək strategiyasının yanlışlığına diqqət çəkib. O qeyd edib ki, Amerika tərəfinin "ümumbəşəri Qərb dəyərləri" və "qaydalara əsaslanan nizam" haqqında danışması Amerika hərbi ittifaqından kənarda qalan dünya tərəfindən tamamilə ələ salınır. "ABŞ-ın həqiqətən nümayiş etdirdiyi yeganə dəyər müharibələrə başlamaq və başqa ölkələrə hörmət etməməkdir", - deyə ekspert yekunlaşdırıb.

❑ **Musavat.com**

YENİ MÜSAVAT
N 193 (8496) 17 iyul 2024

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## İşğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış"

**Qarabağ durmadan canlanır. Artıq Azərbaycan insanının ayaq səsləri işğaldan azad olunan bütün ərazilərdə eşidilməkdədir. "Böyük Qayıdış" proqramı çərçivəsində köç karvanları ard-arda yola salınır. İşğaldan azad olunan bütün ərazilərimizdə olduğu kimi, Xocalı rayonunun Malıbəyli kəndində də tikinti-quraşdırma işləri davam etməkdədir. "Böyük Qayıdış" Dövlət Proqramı üzrə doğma yurda növbəti köçün ünvanı qədim tarixə malik Malıbəyli kəndi olacaq.**



# "Böyük Qayıdış" bütövlükdə ölkəmizin daha sürətli inkişafına təkan verəcək"

## Sabiq deputat: "Bu proqram sürətli inkişafımızın açarı deməkdir"

**"Bakı Abadlıq Xidməti" MMC-nin Malibəyli layihəsi üzrə rəhbəri, memar Çağlar Nuyan** Oxu.Az-a açıqlamasında bildirib ki, ilkin mərhələdə doğma torpağına qayıdacaq sakinləri qarşılamaq üçün bütün işlər - yeraltı kommunikasiya (qaz, su, işıq, rabitə) xətlərinin çəkilişi tamamlanmaq üzrədir: "İlk köçəcək sakinlərin fərdi ev birləşmələri hazırdır. Yararsız binalar sökülərək, eyni yerdə yeni evlər tikilir, iaşə obyektlərinin inşası başa çatmaqdadır, gözəl parklar, özəl dizayn verilmiş yaşıllıqlar salınır. Yeni çoxmərtəbəli binalarda olacaq mənzillər isə ailə sayına görə, planlı şəkildə, 2, 3, 4 otaqlı olmaqla sahiblərinə təqdim ediləcək".

**Çağlar Nuyanın sözlərinə görə, bu layihə üzərində çalışan memarların səyi ilə Malıbəyli kəndi Qarabağın ən gözəl və müasir kəndlərindən biri kimi tanınacaq:** "Hazırda işlər sürətlə davam edir, dövlət qurumları tərəfindən müəyyənləşmiş müddətlərə ciddi riayət olunur", - deyə o bildirib.

**Sabiq deputat, siyasi təhlilçi Sona Əliyeva "Yeni Müsavat"a bildirdi ki, tarixi ədalətin bərpası, keçmiş məcburi köçkünlərin işğaldan azad olunan ərazilərə qayıdışı hələ 2017-ci ildən başlayıb:** "O zaman işğaldan azad olunan Cocuq Mərcanlı kəndinə onlarla ailə köçürülmüşdü. Sonra 44 günlük savaş baş verdi və Azərbaycan öz ərazilərini yağı tapdağından azad etdi. Cəmi bir il sonra 30 illik həsrətin son nöqtəsi kimi məcburi köçkünlərin öz ata yurdlarına böyük qayıdışı başladı. Həmin proses bu gün də davam edir.

Özü də proses olduqca sürətli şəkildə aparılır. İşğaldan azad edilmiş ərazilərə "Böyük Qayıdış" prosesi Azərbaycan dövlətinin xüsusi diqqət yetirdiyi prosesdir. Qarabağda və Şərqi Zəngəzurda təmir-bərpa işləri sürətlə gedir. Dövlət tərəfindən "Böyük Qayıdış" planına uyğun olaraq məcburi köçkünlərin doğma yurd-yuvalarına ən qısa zamanda qayıtması üçün bütün imkanlar səfərbər edilib. Həmin ərazilərdə yeni yaşayış məntəqələrinin salınması, infrastrukturun bərpası, yolların çəkilişi, məktəb, xəstəxana tikintisi prosesi həyata keçirilir.

"Böyük Qayıdış" proqramının həyata keçirilməsi təkcə işğaldan azad edilmiş ərazilərimizin deyil, bütövlükdə ölkəmizin daha sürətli inkişafına təkan verəcək. "Böyük Qayıdış" sürətli inkişafımızın açarı deməkdir. "Böyük Qayıdış"ın hər bir mərhələsi "Qarabağ Azərbaycandır!" həqiqətinin təsdiqinə çevrilir.

Son vaxtlar keçmiş məcburi köçkün soydaşlarımızın işğaldan azad edilmiş ərazilərə geri dönüşü barədə tez-tez mətbuatda xəbərlərə rast gəlirik. Qarabağ və Şərqi Zəngəzur böyük tikinti meydançasına çevrilib. İşğal dövründə düşmən tərəfindən tamamilə dağıdılmış, talan edilmiş şəhərlərimizi, kəndlərimizi yenidən qururuq. 2023-cü ildə 5 minə yaxın keçmiş məcburi köçkün öz doğma torpaqlarına qayıdıb. 2024-cü ildə də proses sürətlə davam etməkdədir".

**Müsahibimiz Laçına yola salınan böyük köç karvanları barədə diqqətçəkən sitatistika da açıqladı:** ""Böyük Qayıdış" proqramına əsasən Laçın şəhəri, Sus, Zabux və Qarıkaha kəndi tamamilə hazırdır. Kəndlər üzrə sakinlərin köçünün mütləq əksəriyyəti tamamlanıb. Məlumatlara görə, Laçın şəhəri üzrə köçün növbəti mərhələsi yaxın günlərdə həyata keçiriləcək. Hazırkı dövrədək Laçın şəhərində 534 ailə, daha dəqiq, 1971 nəfərin məskunlaşması təmin edilib. Sus kəndində 215 nəfər olmaqla, 59 ailə, Zabux kəndində isə 823 nəfər olmaqla, 217 ailə məskunlaşıb. Ümumilikdə Laçın rayonunda hazırda 810 ailə, yeni 3009 nəfər yaşamaqdadır.

Laçında tikinti-quruculuq işləri ilə paralel aparılan başlıca məsələ əhalinin məşğulluğunun təmin edilməsi olub. Ona görə "Zerti" Sənaye Parkının ərazisində mebel, ayaqqabı, dam örtükləri, heyvandarlıq və sair müəssisələrin fəaliyyətə başlaması təmin edilib. Bundan əlavə, Laçın rayonunda çox sayda sənaye və istehsal müəssisəsi işləyir. Bu müəssisələrin hər biri sakinlərin məşğulluğunun təmin edilməsinə xidmət göstərir.

Uğurlu tendensiyalardan biri də odur ki, Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə köçən əhalinin 70%-nin məşğulluğu təmin edilib. Dövlətimizin əsas hədəfi köç edən vətəndaşlarımızın məşğulluğunun təmin edilməsidir. Bu proses növbəti illərdə də davam edəcək. Ölkə rəhbərinin dediyi kimi, əhalinin əsas qisminə məşğulluq proqramları xitab etməlidir. Düşünürəm ki, 2030-cu ilə qədər 100 mindən çox keçmiş məcburi köçkün öz yurd-yuvasına qayıda biləcək. Bu müddətə qədər azad olunan ərazilərdə on minlərlə iş yeri açılacaq. Bunun üçün Azərbaycan dövlətinin öz imkanlarını səfərbər edəcəyindən heç kimin şübhəsi yoxdur".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Cavanşir ABBASLI

# Prezident təyyarəsini müşayiət edən qırıcılar - Azərbaycanın arsenalında da olacaq

## Pakistanla əlaqələrdən danışan hərbi ekspertlərə görə, artıq bu yöndə addımlar atılıb





**Xəbər verildiyi kimi, iyulun 11-də Azərbaycan Prezidenti İlham Əliyevin Pakistan səfəri zamanı onu aparan təyyarəni qardaş ölkənin səmasında bu dövlətin qırıcıları müşayiət edib, Azərbaycan liderinə məxsusi sayğının əlaməti olaraq.**

Bu hansı nəsil qırıcılar idi? Onlardan Azərbaycanın hərbi arsenalında da varmı? Nəzərə alsaq ki, ölkəmizin silah tədarükçülərindən biri də Pakistandır. Qırıcıların texniki, üstün göstəriciləri nədir?

**Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə İctimai Birliyinin sədri Emin Həsənli** Pakistanla əlaqələrin böyük önəm daşıdığını qeyd etdi: "Pakistan Türkiyədən sonra ikinci ölkədir ki, Azərbaycanla hərtərəfli əməkdaşlıq aparır, siyasi, iqtisadi, mədəni, humanitar və ən çox da hərbi sahədə. Pakistan nüvə silahına malik yeganə müsəlman ölkəsi kimi həm də bizə yaxın dövlətdir. Bu ölkənin çox böyük imkanları var. Əlindəki imkanlarla çox böyük şanslara sahibdir. Əhalisinin sayı, ordusunun gücü və dünyadakı nüfuzu çox şey deyir. 44 günlük Vətən müharibəmizdə Azərbaycanın yanında olması, ölkəmizi birmənalı şəkildə dəstəkləməsi, qardaş Türkiyə ilə münasibətlərini yüksək səviyyədə qurması bizlər üçün böyük üstünlükdür. Türkiyə ilə bərabər Azərbaycan Pakistanla ən yaxın əlaqələr quran müsəlman ölkəsidir.

Bu əlaqələr get-gedə dərinləşir. Bunun da tarixi səbəbləri var. Ümummilli lider Heydər Əliyevin prezidentliyi dönəmində Pakistana səfəri, eləcə də, Pakistan prezidentinin və baş nazirinin Bakıya ard-arda səfərləri, Pakistanda Heydər Əliyev Fondunun məktəb tikməsi, Pakistana humanitar yardımların edilməsi dövlətlərarası əlaqələrin, sadəcə, nə qədər sıx və yaxın olduğunu göstərir.

Pakistanda türklər, azərbaycanlılar yaşayıb, müəyyən vaxtlarda idarəetmədə də olublar. Hər keçən gün hərbi əməkdaşlıq da dərinləşir. Pakistan hərbi məktəblərində gənclərimiz təhsil alırlar, birgə hərbi təlimlər keçirilir. Pakistanın hərbi potensialına və silahlarına ehtiyac var. Cənab Prezidenti müşayiət edən qırıcılar da yaxın zamanlarda Azərbaycanın hərbi arsenalında olacaq. Bu cür əməkdaşlıqlar dövlət maraqlarımıza tam uyğundur. Regionda və dünyada sülhün və təhlükəsizliyin qorunması üçün bu vacibdir".

**Ehtiyatda olan polkovnik, Azərbaycan Müdafiə Nazirliyinin Hərbi Polisinin keçmiş rəisi Rövşən Məhərrəmov yaxın gələcəkdə bu qırıcı təyyarələrin Azərbaycanın hərbi arsenalında olacağına inanır:** "Cənab Prezident iyulun 11-də Pakistana səfər edən zaman bir nömrəli bortu aparan təyyarəni qardaş ölkənin səmasında bu dövlətin iki növ qırıcıları müşayiət edirdi. Sağ tərəfdə F16-lar, sol tərəfdə isə Pakistan istehsalı olan JF-17C təyyarələri idi. Bu təyyarələri özləri istehsal edir.

F16-lar isə bilirsiniz ki, Amerikada istehsal olunur və Pakistanın arsenalında var. JF-17C-lər Pakistanda 4+ nəsil gedir. O təyyarələr Azərbaycanda yoxdur. Amma o istiqamətdə danışıqlar gedir. Həmin təyyarələri Azərbaycan yəqin ki, gələcəkdə əldə edəcək. Onlar həm qırıcı, həm də bombardmançı təyyarələrdir. Bunun üstünlüyü Cənubi Qafqaz üçün əlverişlidir. JF-17C-lər də radardan yayınma xüsusiyyətlərinə malikdir. Ərazimiz çox böyük olmadığına görə normal sürət yığa bilir. Böyük həcmdə ərazisi olan yerlərdə bu tipli təyyarələrdən istifadə etmək çətindir. Amma bizdə bu təyyarələrin manevr imkanları böyükdür. Gələcəkdə bu təyyarələrin əldə olunması istiqamətində addımlar atılıb və bunun nəticələrini görəcəyik. Onu da biləsiniz ki, Azərbaycanla o təyyarələri əldə etmək üçün kontrakt var".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 123 (8496) 17 iyul 2024



# Tərbiyəçi və Cırtdanın nağılı

Zamin HACI
zaminhaci@gmail.com

**Uşaq bağçasından növbəti horror-triller-vampir filmi janrında video yayılmışdı. Kimsə bağçanın açıq pəncərəsinə telefonu tutub içəridən gələn səsləri gizlicə lentə almışdı. Hansısa balaca yatmaq istəmirdi, tərbiyəçi də onu təhqir edir, bəlkə döyürdü - bu hissələri görmək vətəndaşlarımıza nəsib olmadı.**

Tərbiyəçi adlanan o məxluqatın çıxardığı akustika həqiqətən iyrənc idi və pis çıxmasın, həmin səslərə qulaq asmaq nəinki uşaqlara, böyüklərə də ziyanlıdır. Ancaq hansımız məsumuq ki... Günahsız olan birinci daşı atsın. Bir çox hallarda həyat insanı o cür səslər çıxarmağa vadar edir. Hindistan cəngəlliyinə düşən adama "Bayatı-Şiraz" oxumaq yaramaz (burada Şiraz və şir sözləri üzərində söz oyunu ola bilərdi, oxuculara rəhm etdim, qiymətimi bilin).

Bəlkə tərbiyəçini vaxtilə məhz bu kimi üsullarla tərbiyə ediblər. Həmin söyülən, amansız təhqirlərə məruz qoyulan uşaq da Azərbaycanda hamı yatarkən oyaq qalmağın necə axmaq hərəkət olduğunu başa düşəcək, ömrü boyu yıxılıb yatacaqdır, xorultusu asimana bülənd olacaqdır. İnşallah.

Hazırda Məhərrəm ayıdır, aktual misal çəkirəm: İmam üçün ağlayanda bir az Yezidə də ağlamaq lazımdır. Tərbiyəçini qınamaq, işdən çıxarmaqla, həmin bağçaya müxbir desantı atmaqla və müdirin dalına düşüb mikrofonu ağzına soxmaqla iş düzəlmir. Heç düzəlmir. Səbəblər daha ciddidir və bizdə uşaq bağçalarının, zəhləmgetmiş rəsmi ifadə ilə yazsam "məktəbəqədər təhsil müəssisələrinin" ümumi vəziyyətinin bərbadlığı ilə bağlıdır.

Hərçənd ilk baxışdan elə görünür ki, guya bizdə uşaqlar, uşaq bağçaları dövlət himayəsi altındadır. O cümlədən 2026-cı ilədək bağça tərbiyəçilərinin sertifikasiyası olacaqmış. Vaxtaşırı yoxlamalar aparılır, filan qədər direktora töhmət, behman qədərinə şiddətli töhmət verilir, bəziləri sonuncu xəbərdarlıq alır, işdən qovulur və sairə.

Lakin bunlar problemin görünən tərəfidir. Cırtdanın nağılından, orada yatmayan uşağın qəhrəmana çevrilməsindən yanaşsaq, işıq gələn tərəfdir (guya). Məktəbəqədər təhsilimizin "it hürən tərəfi" daha acınacaqlıdır.

O tərəfə baxanda ilk növbədə 320-700 manat arası maaş alan ac-yalavac, valideynlərin əlinə baxmağa məcbur tərbiyəçilər görəcəyik. Bu şəxslər həmin maaşla öz uşaqlarını necə böyütməlidir? Niyə bunu düşünən yoxdur? Gilasın 8 manat olduğu ərazidə 400 manat maaş alan adamdan hansı səslər çıxmalıdır ki?

Dünya normativlərinə görə, hər qrupda 5-10, uzağı 15 uşaq olmalı halda dövlət bağçalarımızın qruplarına təpilib doldurulmuş 30-40 uşağa tərbiyəçi necə baxmalıdır?

1991-ci ildə, SSRİ dağılanda Azərbaycanda 2185 uşaq bağçası var idi. 2023-cü ildə onların sayı 1844-ə düşüb. Əhalinin ümumi sayı 3 milyondan çox artdığı şəraitdə. Uşaq bağçasına gedən uşaqların sayı da 181 mindən 118 minə düşüb.

1-5 yaşlı uşaqların ümumi sayından bağçalara cəlb edilənlərin nisbəti 1991-ci ildə 22 faiz idi (Hər 100 uşağın cəmi 22-si bağçaya gedirdi). 2016-cı ildə bu faiz biabırçı şəkildə aşağı düşüb 15 olmuşdu. Son illər bir az artıb, 2023-də 35 faizə çatıb. Ancaq yenə bərbad rəqəmdir, çünki sivil dünyada uşaqların bağça təminatı 80-90 faizə çatır.

Uşaqlarımıza bağça çatışmır! Bu acı reallıqdır. Şəhər yerləri üzrə 974 dövlət, 146 özəl bağça var. Kənd yerlərindəki 724 bağçanın, sizcə, neçəsi özəldir? Təxmin edin. Əlbəttə, tapa bilməzsiniz, çünki mən də Statkomun hesabatında bu rəqəmi görəndə heyrətə gəlmişdim: 2! Kənd yerlərimizdə cəmi 2 özəl bağça var. Bütün ölkə üzrə.

Niyə özəl sektor bu cür gəlirli, vacib sahəyə maraq göstərmir? Bəlkə dövlət də maraq göstərmir deyə? Bəlkə heç bizdə özəl sektor yoxdur? Ritorik suallardır. Yazıdakı başqa suallar kimi.

Hələliksə tərbiyəçinin boğazına dəyirman daşı asıb çayda boğduq. Gurultulu alqışlar. Qalır Cırtdana qayğanaq və su vermək. Acqarına yatmayacaq. İlan vuran yatar, ac yatmaz.

Axtarsan həmin bağçanın həyətindən ilan da çıxar, ancaq bu başqa nağılın mövzusudur.

# ŞOK: Pentaqon təlimatçısı İrəvanda oturacaq! - Ermənistan revanşa hazırlanır?

## Qərb İrəvana bölgəni qarışdırmaq sifarişi verə bilər; **ekspert:** "Bu addımlar kapitulyant ölkəyə baha başa gələcək..."

**Suriyadan sonra ərazisində həm ABŞ, həm də Rusiya (Qərb) hərbçiləri olan tək ölkə Ermənistandır. Hərçənd kapitulyant ölkə "Rus NATO-su"nun - KTMT-nin rəsmi üzvüdür. Di gəl, nə 2-ci Qarabağ müharibəsindəki ağır məğlubiyyətdən, nə də Suriyanın aqibətindən dərs götürməyən Nikol Paşinyan hökuməti "iki stul" siyasətini davam etdirir.**

Əsas məqsəd şübhəsiz, vaxt udub Azərbaycan qarşısında təzədən toparlanmaq, sülh müqaviləsi imzalamaqdan yayınıb revanşa hazırlaşmaqdır. Fransadan, Hindistandan alınmağa davam edən hücum silahlarının, Brüsseldə bu il aprelin 5-də "üçlü format"da (ABŞ-Avropa Birliyi-Ermənistan) keçirilmiş yüksək səviyyəli görüşün tək hədəfi də əsasən budur. Görünən odur ki, ABŞ başda olmaqla, Qərb sülhdən dəm vursa da, altdan-altdan Ermənistanı silahlandırır, ona hərbi təlimlər keçir.

Yeri gəlmişkən, iyulun 15-dən Ermənistanda "Eagle Partner 2024" kod adlı ABŞ-Ermənistan birgə təlimləri başlayıb. Təlimlər 9 gün çəkəcək. Rəsmi məlumata görə, təlimlərin məqsədi beynəlxalq sülhməramlı missiyalarda iştirak edən bölmələr arasında koordinasiyanın səviyyəsinin yüksəldilməsi, idarəetmə və kommunikasiya sahəsində təcrübə mübadiləsi və (diqqət!) Ermənistan hərbçilərinin döyüş hazırlığının artırılmasıdır. Yada salaq ki, əvvəlki erməni-amerikan təlimləri ötən ilin sentyabrında baş tutub.

**Erməni hərbi ekspert Leonid Nersisyan hesab edir ki, iyulun 15-də Ermənistanda başlayan birgə hərbi təlimləri yalnız başlanğıcdır:** "Ən əsası odur ki, ABŞ əvvəllər Ermənistan ərazisində hərbi təlimlər keçirməyib. Bu, çox ciddi addımdır".

Onun sözlərinə görə, hazırda Ermənistan ordusunun daha ciddi hərbi təlimlərə, məsələn, quru qoşunlarının təlimlərinə ehtiyacı var. "Söhbət təkcə hərbi təlimlər və ABŞ-la hərbi sahədə əməkdaşlıqdan getmir. Məsələn, artıq Amerika ordusunun nümayəndəsinin Ermənistan Müdafiə Nazirliyində işləməsi ilə bağlı qərar var ki, bunu da çox mühüm sayıram", - Nersisyan əlavə edib.

Bəs görəsən, konstitusiyasından Azərbaycan və Türkiyəyə qarşı əsassız ərazi iddialarını çıxarıb onu beynəlxalq hüquqa uyğunlaşdırmaqdan israrla boyun qaçıran bir ölkə nəyə hazırlanır? Belə təlimlərin gerçək hədəfi nə? Sülhə, sülh danışıqlarına töhfə belə mi olur? KTMT üzvü Ermənistanın bu qütbə qarşı olan ABŞ-la birgə hərbi təlimlər keçməsi nədən xəbər verir?



**Hərbi ekspert, polkovnik Rövşən Məhərrəmov "Yeni Müsavat"a bildirdi ki, Nikol Paşinyanı hakimiyyətə gətirən və hakimiyyətdə saxlayan başda ABŞ olmaqla Qərbdir:** "Ona görə də Paşinyan gələn gündən Ermənistanın istiqamətini Qərbə yönəldib. Rusiyanın 102-ci hərbi bazasının Ermənistanda qalma müddətini belə Paşinyan uzatmaq istəmirdi. Lakin Rusiyanın təzyiqləri ilə o, buna razılıq verməli oldu. Buna baxmayaraq, Paşinyan hakimiyyəti anti-Rusiya xəttini davam etdirdi. Son zamanlar isə bu siyasət daha da kəskin xarakter alıb. 2020-ci ildə 44 günlük müharibədə məğlub olan Ermənistan əhalisinin anti-Rusiya əhvalına köklənməsi üçün bu məğlubiyyət Paşinyan üçün sanki bir bəhanə olaraq ələ düşdü. O vaxtdan etibarən davamlı olaraq Ermənistan mediası, siyasi dairələri Rusiyaya qarşı təbliğata keçdi. Təbliğat elə həddə çatdı ki, erməni cəmiyyətinin böyük hissəsində Rusiyaya qarşı nifrət əhval-ruhiyyəsi yarandı.

Bu, ABŞ-ın çoxdankı arzusu və istəyi idi. Həyata keçirilən planın hədəflərindən biri məhz bu idi. Buna da nail olundu. Ardınca Rusiyanın patronajlıq etdiyi KTMT-dən məsafə saxlamaq xətti yürüdülməyə başlandı. KTMT-yə rəhbərlik eləyən erməni general geri çağırıldı və ona cinayət işi açaraq həbs etdilər. Bu da İrəvanın Rusiyadan uzaqlaşmaq xəttinin daha bir hissəsi idi. Nikol Paşinyan KTMT-dən, Rusiyadan uzaqlaşdıqca ABŞ-a, Qərbə daha da yaxınlaşdı. Çünki onun üzərinə bu öhdəlik götürülərək hakimiyyətə gətiriblər. Ermənistanın KTMT təlimlərindən, KTMT toplantılarından imtina edib ABŞ hərbçiləri ilə birlikdə hərbi təlimlərə başlaması isə artıq hər şeyi ortaya qoymuş oldu. Beləliklə, aydın görünməyə başladı ki, Nikol Paşinyan Ermənistanı Rusiyanı ABŞ-la əvəz etməkdə qərarlıdır".

**Polkovnikin sözlərinə görə, ABŞ və Fransa Ermənistanın hərbi gücünü artırır ki, həm Rusiya, həm də Azərbaycan və Türkiyə qarşısında özünü zəif hiss etməsin**: "ABŞ-a lazım olanda hərbi dəstək verdiyi Ermənistana Cənubi Qafqazı qarışdırmaq sifarişini verəcək. Hətta Rusiyanı qarışıqlıq yaradılmış Cənubi Qafqaz bataqlığına cəlb etmək də gələcək hədəflərdən sayıla bilər.

Ermənistanın son zamanlar sülh müqaviləsi mövzusundan uzaqlaşmaq, sərhədlərin delimitasiyası və demarkasiyası prosesini sanki dondurmaq xətti yürütməsi də Qərbdən ona verilən dəstəklə əlaqədardır. Ermənistan hesab edir ki, artıq ABŞ onun hərbi qüvvələrini gücləndirməyə başlayıb və bir müddətdən sonra güclənmiş ordusu ilə yenidən Azərbaycana qarşı müharibəyə başlaya bilər. Qərbin, əsasən də ABŞ-ın Ermənistana hərbi yardımları, birgə təlimləri Cənubi Qafqazda sabitliyə, sülhə ən böyük təhdiddir.



İndi isə növbə gəlib çatıb ABŞ hərbçilərinin Ermənistan Müdafiə Nazirliyinin idarəçiliyini ələ keçirməsinə. Amerika ordusunun nümayəndəsinin təlimatçı adı ilə Ermənistanın Müdafiə Nazirliyində işləməsi ilə bağlı qərarın verilməsinin başqa adı yoxdur. KTMT-nin üzvü olan Ermənistan KTMT-yə qarşı olan qütbün silahlı qüvvələri ilə birgə təlimlər keçirir, Müdafiə Nazirliyinə KTMT-yə qarşı olan qütbün hərbçilərini cəlb edir. Məncə, Ermənistanın bu addımları ona çox baha başa gələcək. Rusiya bir gün sərt pəncəsini Ermənistanın üzərinə endirəcək və bu zaman cılız Ermənistan elə əziləcək ki, dövlət kimi ayaq üstə dayana bilməyəcək.

Eyni zamanda burada İran amilini də unutmamaq lazımdır. Paşinyan İranın sərhədindəki Ermənistanı ABŞ-ın meydançasına, hərbi poliqonuna çevirirsə, Tehran üzdə indiklə özünü təmkinli göstərsə də bir gün qəzəbini büruzə verəcək. O zaman Ermənistanın nəfəsliyi kəsilmiş olacaq. Paşinyan ABŞ hərbi qüvvələrini İran sərhədinə cəmləşdirmək siyasətini yürüdürsə, Tehranın bunu sonadək sakit şəkildə izləyəcəyi ehtimalı çox azdır".

❑ Etibar SEYİDAĞA,
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 123 (8496) 17 iyul 2024

# Paşinyanı Bakıya "gətirəcək" o sənəd... - İrəvanın sülh hoqqaları bitir

## Ermənistanın baş naziri konstitusiyanı dəyişmək üçün İlham Əliyevdən vaxt istəyib; sülh sazişi ilə bağlı prosesin uzadılması İrəvanın özünə başağrısı yaradacaq; ekspertlərdən ilginc açıqlamalar



**Amerikalı diplomatların bölgəyə intensiv səfərlərinin ardınca Ağ Evdən növbəti dəfə sülh mesajları eşidilməyə başladı. ABŞ Dövlət Departamenti Azərbaycan və Ermənistanın sülh danışıqlarında irəliləyiş əldə etdiyini açıqlayıb. Bu barədə xarici siyasət idarəsinin mətbuat katibi Metyu Miller brifinqdə söyləyib.**

Onun sözlərinə görə, Vaşinqton tərəfləri sülh razılaşması əldə etməyə təşviq etməkdə davam edir. "Sülh razılaşması region, regionda sülh və təhlükəsizlik üçün çox vacib olardı. Razılaşmanın mümkün olduğunu düşünürük, bunun üçün hər iki tərəfdən mürəkkəb seçimlər və çətin kompromislər tələb olunacaq", - sözçü bildirib. Bundan əvvəl, NATO-nun yubiley sammiti çərçivəsində Azərbaycan və Ermənistan XİN rəhbərlərinin görüşündən sonra da sülh mesajları verilmişdi. Amma sülhün imzalanması üçün görüşlər, yaxud xoşməramlı bəyanatlar kifayət etmir. Azərbaycan Prezidenti sülhün formulunu açıq şəkildə və qətiyyətlə dilə gətirib. İlham Əliyev bəyan edib ki, Ermənistanla sülh sazişinin əsas şərti ölkəsinə qarşı ərazi iddialarını özündə əks etdirən Ermənistan konstitusiyasının dəyişdirilməsidir.

**Sitat:** "Sülh sazişinin əsas şərti Ermənistan konstitusiyasına dəyişiklik edilməsidir. Çünki orada Azərbaycana qarşı ərazi iddiaları var və sülh sazişi konstitusiya dəyişikliyi olmadan imzalana bilməz. Əsas prinsiplər üzərində isə indidən razılaşmaq və saziş mətni üzərində işləmək mümkündür".

Ermənistan rəhbərliyi isə konstitusiya düzəlişlərini 2026-cı ilədək uzatmaqla "taym-aut" götürmək, "nə hərb, nə sülh" mövqeyini - status-kvonu qoruyub-saxlamaqla vaxt qazanmağı hədəfləyib. Və paralel şəkildə sülh bəyanatları səsləndirən Paşinyan hakimiyyəti silahlanmanı sürətləndirir, Hindistandan SEZAR özüyeriyən artilleriya qurğuları, snayperlər alır... Bu, Ermənistanın sülhə nə qədər "sadiq" olduğunu göstərir.

Elə bu qeydləri yazarkən erməni mediası təsdiqləyici xəbər yaydı. Bildirilir ki, Ermənistanın baş naziri Nikol Paşinyan ölkə konstitusiyasında dəyişikliklərə başlamaqla bağlı Azərbaycan Prezidenti İlham Əliyevdən vaxt istəyib. Musavat.com xəbər verir ki, bu barədə "Hraparak" qəzeti Ermənistanın hakim "Vətəndaş müqaviləsi" partiyasındakı mənbəyə istinadən xəbər yayıb. Qəzet yazır ki, Paşinyan konstitusiyada dəyişikliklərə 2026-cı ildə keçirilən parlament seçkilərindən sonra başlamaq niyyətindədir.

Artıq çox məsələlər bəllidir və Ermənistan hökumətinin Azərbaycanla sülh sənədi ətrafında manipulyasiya resursu tükənməkdədir. Siyasi müşahidəçilərə görə, son vaxtlar "Bakı ilə sülh sənədi bir araya, uzağı COP29-dək imzalana bilər" bəyanatlarını səsləndirməyi sevən İrəvan rəsmilərinin səmimiyyət dərəcəsini artıq əməldə isbatlamaq məqamı çatıb. Çünki Azərbaycandan asılı heç nə qalmayıb. Yazılı sülh anlaşmasına ən böyük əngəl isə məlum: Ermənistan konstitusiyası. Yəni "top" çoxdan İrəvanın meydanında. Hərçənd bunu danır, hətta Bakını sülhə əlavə əngəllər yaratmaqda ittiham edirlər.

Sözsüz ki, danışıqlarda Ermənistan tərəfdən əsas söz sahibi baş nazir Nikol Paşinyandır. O da "nöqtə"ni qoymalıdır. Bu halda haqlı olaraq ortaya suallar çıxır: bacaracaqmı, buna siyasi iradəsi çatacaqmı? Onun hansı sözünə inanmaq olar, hansına yox? Ümumiyyətlə, inanmaq olarmı?

Bu arada "Hraparak" qəzeti onu da iddia edib ki, Paşinyan Bakıda noyabrda keçiriləcək COP29 konfransında iştirak edə bilər. Bildirilir ki, sülh və ya sülhlə bağlı çərçivə sazişinin COP29-a qədər imzalanmasının mümkünlüyü haqda məlumatlar yayılandan sonra "hökumətyönlü təbliğat aparatı" Paşinyanın Bakıya səfər edə biləcəyinə eyhamlar vurur. "Açıq sənədlər və bəyanatlar əsasında öz təhlillərini aparan Areq Koçinyan Nikol Paşinyanın noyabrda BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının iştirakçılarının konfransında iştirak etmək üçün Bakıya gedə biləcəyini istisna etməyib. "Mən istisna etmirəm ki, sazişin imzalanması COP29 çərçivəsində baş verəcək. Bir şərtlə ki, Ermənistanın baş naziri geri qayıdanda Bakıda saxlanılan hərbi əsirləri özü ilə gətirsin", - hökumətin rəsmi təbliğatçısı "AzadlıqRadiosu"nun erməni xidmətinə bildirib. Bu açıqlama Paşinyanın Bakıya mümkün səfəri ilə bağlı pərdəarxası danışıqların aparıla biləcəyini istisna etməməyə əsas verir", - məqalədə iddia olunur.

Hadisələrin bu yöndə inkişafı nə dərəcədə realdır? Söhbət hansı "hərbi əsirlər"dən gedir? Belə bir variant mümkünmü? Nəhayət, imzalanacaq sənədin, Paşinyanı Bakıya gətirəcək sənədin adı nə olacaq - çərçivə sazişi, yoxsa...

**Politoloq Qafar Çaxmaqlı yaranmış situasiyanı "Yeni Müsavat"a şərh edərkən maraqlı fikirlər söylədi:** "Ermənistanda belə hesab edirlər ki, Paşinyan COP29 tədbirlərində iştirak etmək üçün cidd-cəhdlə çalışır. COP29-a o, artıq sülh müqaviləsinə imza atmış lider kimi qatılacaq. Bu, Azərbaycan üçün də müsbət bir hadisə kimi tarixə düşəcək, yeni dünənə qədər problemli ölkələr bir arada olacaq. Amma Ermənistanda bunu da anlayırlar ki, ölkə konstitusiyasının preablua hissəsində Azərbaycana qarşı ərazi iddialarının yer aldığı ifadələr qalarsa, bağlanacaq müqavilənin heç bir keçərliliyi olmayacaq. Bu, çərçivə sazişi olsa belə. Ermənistan isə bu il referenduma getməyə hazır deyil, Paşinyanın guya 2026-cı il seçkilərində bunu həll edəcəyini söz verməsi Azərbaycanı razı sala bilməz. Həm iki il sonra başqa bir atmosfer, başqa bir situasiya ola bilər".

**Q.Çaxmaqlı əlavə etdi ki, Azərbaycan konkretlik istəyir və hələ COP29-a çox var:** "Ermənistanın konstitusiya dəyişikliyi etməyə kifayət qədər vaxtı var. Bunu müəyyən prosedurları dəyişdirməklə parlamentdə də edə bilərlər. Erməni hüquqşünaslardan biri Artur Çilingəryan iddia edib. Paşinyan istəsə bu problemi həll edər, amma belə görünür ki, Ermənistan sülh danışıqları ilə bağlı siyasi manipulyasiyaları davam etdirmək istəyir, ona nail olmaq onun üçün önəmli deyil. Amma bəzi politoloqlar Paşinyanın Bakıdakı beynəlxalq tədbirdə müqavilə imzalansa da, imzalanmasa da getməli olduğunu deyirlər. Buna Ermənistanın Qərbə yönəlik siyasətinin tərkib hissəsi kimi baxırlar".

**Ermənişünas alim ilginc açıqlamalar verdi:** "Politoloq Suren Surenyantsa görə, Paşinyanın Bakıya gəlməsi Ermənistanın beynəlxalq imicinə müsbət təsir göstərərdi. COP29 Ermənistan rəhbərliyi üçün yaxşı fürsətdir, həm də o mənada ki, Paşinyan Bakıda olan "hərbi əsirlər"i azad edə bilər və bu onun gələcəkdə reytinqini artırardı. Hərbi əsirləri Azərbaycan Ermənistana verib, burada olanlar cinayət törətmiş şəxslərdir və cinayətlər də Azərbaycan torpaqlarında törədilib. Qanunlarımızla onlar mühakimə olunurlar, hələ Ermənistanda olan və cinayətlərə bulaşmış xeyli adam var ki, Azərbaycan onların da tutulub təhvil verilməsini Ermənistandan tələb edib. Bloger Natali Aleksanyan Köçəryan, Sərkisyan və Ohanyanın da tutulub Azərbaycana verilməsini təklif edir. Bakıda imzalanması ehtimal olunan sənəd yalnız çərçivə sənədi ola bilər, çünki Ermənistan sülh anlaşması kriteriyalarına cavab verəcək addımları atmır və yaxud buna hazır deyil".

**Politoloq Məhəmməd Əsədullazadə bildirdi ki, Ermənistanla Azərbaycan arasında danışıqlar çərçivə sazişi üzərində gedir:** "Tərəflər konkret qərarlaşıb ki, bir-birilərinə hərbi təhdid olmayacaq. Azərbaycan tələb edir ki, konstitusiya dəyişsin. Əlbəttə, sülh müqaviləsi ölkənin konstitusiyasina zidd olmamalıdır. Ermənistanın Azərbaycandan vaxt istəməsi mümkündür. Amma çərçivə sazişi imzalanmalıdır. Ermənistan isə buna tələsmir, əlavə şərtlər irəli sürür. Üstəlik, Azərbaycanda saxlanılan terrorçuları tələb edir. Azərbaycan buna gedə bilməz. Xüsusilə separatçı liderlərin azadlığı müzakirə predmeti olmayacaq".

**Bütün bunların fonunda ekspert güman edir ki, Paşinyan Azərbaycana gələ bilər:** "Bunu Vaşinqton da Paşinyandan tələb edir. Azərbaycana getsin və çərçivə sazişi imzalansın. Bu, mümkündür. Amma Ermənistan əlavə şərtlər irəli sürə bilməz. Kompromis ola bilməz. Anklav kəndlərlə bağlı fikir ayrılıqları var. Bir də Kəlbəcər istiqamətində sərhədlə bağlı Ermənistan tərəfinin şərtləri var. Hesab edirəm ki, bu, çərçivə sazişi ilə tənzimlənə bilər. COP29-a kimi sənədin imzalanması mümkündür. Ancaq rəsmi Bakı tələsmir".

Politoloq hesab edir ki, sülh daha çox Ermənistana lazımdır, əgər reallığı dərk edərlərsə...

Yazı hazırlanarkən məlum oldu ki, bir aya sülh imzalanmasını mümkün sayan Paşinyan... bir aylıq məzuniyyətə çıxıb. Musavat.com erməni mediasına istinadən bildirir ki, bu barədə "Sputnik Ermənistan"a onun mətbuat katibi Nazeli Baqdasaryan məlumat verib. "Paşinyan iyulun 15-dən məzuniyyətdədir. Baş nazir bunun böyük hissəsini Ermənistanda keçirəcək", - o qeyd edib. Bildirilir ki, Paşinyan avqustun 12-dək məzuniyyətdədir. O da bildirilir ki, Nikol Paşinyan bu həftə Londonda keçiriləcək Avropa Siyasi Birliyinin dördüncü sammitində iştirak edəcəyi üçün məzuniyyətini yarımçıq qoyacaq.

Çox güman ki, ailəliklə Berlinə, Avropa Çempionatının finalına baxmağa gedən Paşinyan istirahətini davam etdirməyə qərar verib. Deməli, onun sülhlə bağlı dedikləri də uydurma imiş, sadəcə, vaxtı uzadır, əvvəlcədən ehtimal etdiyimiz kimi. Amma sülh sazişi ilə bağlı prosesin uzadılması Ermənistanın özünə başağrısı yarada bilər, Paşinyan növbəti səhvə yol versə, günahı başqasında axtarmasın.

Düzdür, o da zaman-zaman reallığı erməni xalqına açıqlayır, hətta "məndən deməkdir", məzmununda çıxışlar edir, həmçinin konstitusiya ilə bağlı. Lakin Baqrat Qalstanyanın dəstəsinin yenidən baş qaldırması revanşistləri həvəsləndirir. Həmçinin xarici havadarların davranışları, Ermənistanı silahlandırması. İstənilən halda baş verəcəklərə görə məsuliyyəti Paşinyan daşıyacaq. Türkiyə də ən yüksək səviyyədə sülh, həmçinin Zəngəzur dəhlizi ilə bağlı mövqeyini ifadə edib, bu anlaşmaların Ermənistanın özü üçün faydalı olduğunu bəyanlayıb. Qapıların açılması da İrəvanın Azərbaycanla anlaşmasından asılı olacaq, bu qədər sadə həll yolu varkən, Nikol niyə "dağa-daşa" düşüb?

❑ **E.PAŞASOY,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 123 (8496) 17 iyul 2024

# ÜDM artıb, neft, kartof, taxıl istehsalı isə... - 6 ayın yekunu

## Yarım ilin iqtisadi göstəriciləri statistik rəqəmlərin dili ilə

**Azərbaycan Dövlət Statistika Komitəsi bu ilin birinci yarısının makroiqtisadi göstəricilərini açıqlayıb. Komitənin məlumatlarından aydın olur ki, ötən ilin eyni dövrü ilə müqayisədə bu il iqtisadiyyatda canlanma müşahidə olunub: ölkədə ÜDM 4,3 faiz artıb. Bu da əsasən qeyri-neft-qaz sektoru hesabına əldə edilib.**

Ötən il ölkədə tikinti materiallarının istehsalı da xeyli - 35,7 faiz artıb. Bunu Qarabağda bərpa və yenidənqurma işləri ilə bağlı tikinti inşaat materiallarına tələbatın kəskin artması ilə izah etmək olar. Tikinti materialları ilə yanaşı, əczaçılıq, metallurgiya sənayesi, mebel, rezin və plastik məmulatların istehsalında da artım olub.

Mədənçıxarma sektorunda əmtəəlik neft hasilatı 4,9 faiz azalıb, əmtəəlik qaz hasilatı isə 5,3 faiz artıb. Energetika Nazirliyinin məlumatına görə, 6 ay ərzində ölkədə 25,1 milyard kubmetr təbii qaz hasil edilib. Qazın 6,5 milyard kubmetri AÇG-dən, 14 milyard kubmetri "Şahdəniz"dən, 0,8 milyard kubmetri Abşerondan, 3,8 milyard kubmetri SOCAR üzrə hasil olunub. Ötən ilin müvafiq dövrünə nisbətən qaz hasilatında təqribən 1 milyard kubmetr, yəni 4,3 faiz artım qeydə alınıb.

Hesabat dövründə xaricə qaz satışı təxminən 12,7 milyard kubmetr təşkil edib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə təqribən 6 faiz çoxdur. Cari ilin yanvar-iyun aylarında Türkiyəyə təqribən 5 milyard kubmetr, Avropaya təqribən 6,4 milyard kubmetr, Gürcüstana isə 1,3 milyard kubmetr qaz satılıb.

2024-cü ilin yanvar-iyun ayları ərzində ölkədə təxminən 14,4 milyon ton neft (kondensatla birlikdə) hasil edilib. Bunun 8,2 milyon tonu "Azəri-Çıraq-Günəşli"nin, 2,1 milyon tonu (kondensat) "Şahdəniz"in, 0,3 milyon tonu (kondensat) Abşeron yatağının payına düşüb. SOCAR üzrə neft (kondensatla birlikdə) hasilatı 3,8 milyon ton təşkil edib.

Eyni dövrdə təxminən 11,9 milyon ton neft (kondensatla birlikdə) ixraca nəql olunub. Bunun 10,3 milyon tonu konsorsiumun, 1,6 milyon tonu isə SOCAR-ın payına düşür.

Cari ilin yanvar-iyun aylarında ölkədə neftin emalı 3,2 milyon ton təşkil edib.

2024-cü ilin yanvar-iyun ayları üzrə kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 6019,7 milyon manat təşkil edib ki, onun da 3138,7 milyon manatı heyvandarlıq, 2881,0 milyon manatı bitkiçilik məhsullarının payına düşür. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə kənd təsərrüfatının ümumi məhsulu 0,3 faiz artım tamamən heyvandarlıq sahəsinin hesabına baş verib. Belə ki, altı ayda heyvandarlıq məhsulları istehsalı 2,1 faiz artıb, bitkiçilik məhsulları istehsalı isə 1,4 faiz azalıb.

Konkret məhsullar üzrə istehsala baxsaq, ilin birinci yarısında 1 milyon 967 min tona yaxın dənli və paxlalı bitkilər yığılıb. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 5,6 faiz azdır. Kartof istehsalı da azalıb. İlin birinci yarısında 358 min tona yaxın kartof yığılıb ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 17 faiz azdır. Meyvə və giləmeyvə yığımı 8,4 faiz, bostan bitkilərinin yığımı 14,4 faiz artıb.

2024-cü il iyul ayının 1-nə ölkədə ümumi sahəsi 1,6 min hektar olan 3027 vahid istixana fəaliyyət göstərib. Yanvar-iyun aylarında yetişdirilən əsas məhsullardan olan pomidor istehsalı 171,2 min ton, xiyar istehsalı 7,3 min ton olub.

2024-cü ilin yanvar-iyun aylarında quş əti də daxil olmaqla diri çəkidə 290,3 min ton ət, 1134,1 min ton süd, 1189,1 milyon ədəd yumurta, 13,8 min ton yun, 239,5 ton barama istehsal olunub, 2023-cü ilin müvafiq dövrünə nisbətən ət istehsalı 1,7 faiz, süd istehsalı 1,0 faiz, yumurta istehsalı 7,4 faiz artıb, yun istehsalı 1,6 faiz, barama istehsalı 32,8 faiz azalıb.

2024-cü ilin yanvar-iyun aylarında Azərbaycanda əsas kapitala 7 milyard 984,8 milyon manat məbləğində, yaxud əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 9,4 faiz çox investisiya yönəldilib. Bu dövrdə neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 4,5 faiz, qeyri neft-qaz sektoruna yönəldilən investisiyaların həcmi isə 12,6 faiz artıb.

Altı ayda Azərbaycanın dövlət büdcəsinin gəlirləri 18 milyard 842,9 milyon manat, xərcləri isə 16 milyard 52,1 milyon manat təşkil edib. Bu isə ötən ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 21,7 faiz və 14,1 faiz çoxdur. Beləliklə, ilin birinci yarısında büdcədə 2 milyard 790,8 milyon manat profisit yaranıb. Bu isə 1 il əvvələ nisbətən 97 faiz çoxdur.

Rəsmi statistikaya əsasən, cari il iyunun 1-i vəziyyətinə Azərbaycanda muzdla çalışan işçilərin sayı 1 milyon 749,4 min nəfər olub. Bunlardan 893,1 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 856,3 min nəfəri qeyri-dövlət sektorunda çalışıb. İqtisadiyyatın neft-qaz sektorunda işləyənlərin sayı 31,9 min nəfər, qeyri neft-qaz sektorunda isə 1 milyon 717,5 min nəfər olub. Ötən bir il ərzində dövlət sektorunda işçi sayı 5,5 min nəfər azalıb, özəl sektorda isə 28,6 min nəfər artıb.

Bu ilin yanvar-iyun aylarında Azərbaycanda 13 milyard 557,4 milyon kVt/saat elektrik enerjisi istehsal edilib. Energetika Nazirliyi bildirir ki, bu, 2023-cü ilin eyni dövrü ilə müqayisədə 350,50 milyon kVt/saat və ya 2,52 faiz azdır.

Xatırladaq ki, 2023-cü ilin yanvar-iyun aylarında ölkədə elektrik enerjisinin istehsalı 13 milyard 907,9 milyon kVt/saat təşkil edib.

Birinci yarımildə istilik elektrik stansiyaları üzrə 11 milyard 525 mlyon kVt/saat, su da daxil olmaqla bərpa olunan enerji mənbələrindən 950,7 milyon kVt/saat artımla 2 milyard 032,4 milyon kVt/saat elektrik enerjisi istehsal edilib. Beləliklə, bu dövrdə elektrik enerjisi istehsalında "yaşıl enerji"nin payı 15 faizə yüksəlib.



**İqtisadçı-alim Vüqar Bayramovun sözlərinə görə, ölkədə bərpa olunan mənbələrdən enerji istehsalının artması müsbət amildir:** "Azərbaycanda günəş enerjisi istehsalı rekord səviyyədə artıb. Belə ki, bu ilin ilk yarısında günəş enerjisi istehsalı 9 dəfə artaraq 32,3 milyon kVt/saatdan 286,6 milyon kVt/saata çatıb. COP29-a ev sahibliyi edəcək Azərbaycanda bərpa olunan mənbələrdən enerji istehsalının artırılması regionda yaşıl enerji zonasının genişlənməsinə dəstəkdir. Bu, ölkəmizin iqlim dəyişikliyi və ətraf mühitin qorunması, eləcə də yaşıl iqtisadiyyatın gücləməsi ilə bağlı qlobal və regional hədəflərə töhfəsidir".

**İqtisadçı-alim bildirir ki, inkişaf etmiş ölkələrdə icmalar və eləcə də ailələr bərpa olunan enerji mənbələrdən, o cümlədən külək və günəş şüalarından enerji istehsal edərək həm öz istehlaklarını ödəyirlər, həm də artıq hissəni dövlətə satırlar:** "Oxşar praktikanın Azərbaycanda tətbiq olunması elektrik enerjisi istehsalını artırmaqla yanaşı vətəndaşların daha ucuz enerji almasına gətirib çıxara bilər. Bu, həm də enerji istehsalı və satışına yeni yanaşmanın tətbiqinə imkan yaratmaqla yanaşı enerji xəclərini azalda bilər. Bunun üçün icma əsaslı inteqrasiya olunmuş infrastrukturun formalaşdırılması da vacibdir.

Qeyd edək ki, Azərbaycanın bərpa olunan enerji mənbələri üzrə potensialı 27000 Mvt dəyərləndirilir. Bunun 23000 Mvt-ı günəş, 3000 Mvt-l isə külək enerjisinin payına düşür. Günəş enerjisi üzrə, demək olar, bütün ölkə ərazisində istehsalın təşkili mümkündür. Külək enerjisi üçün isə Bakı şəhəri, Abşeron və Xızı rayonları daha əlverişli hesab olunurlar".

Onu da qeyd edək ki, qaz hasilatı və ixracı artsa da, neft hasilatı və ixracının azalması ölkənin əldə etdiyi gəlirlərin də azalmasına gətirib çıxarır. Dövlət Neft Fondundan "Yeni Müsavat"a verilən məlumata görə, bu ilin birinci yarısında AÇG yatağından - fonda 3 milyard 5,3 milyon ABŞ dolları gəlir daxil olub. Bu göstərici ötən ilin eyni dövründə 3 milyard 348 milyon dollara bərabər olmuşdu. Beləliklə, Neft Fonduna AÇG-dən daxilolmalar 10,2 faiz azalıb.

İlin birinci yarısında Şahdəniz yatağından qaz və kondensat fonda 244,069 milyon ABŞ dolları təşkil edib. Bunun 60,784 milyon ABŞ dolları Şahdəniz yatağı üzrə kondensatın satışından əldə olunub. Ötən ilin eyni dövründə Şahdənizdən fonda 1 002 milyon ABŞ dolları daxil olduğunu nəzərə alsaq, bu göstəricinin cari ildə 75 faizə yaxın azaldığını görərik.

Azərbaycanda makroiqtisadi göstəricilərə təsir edən əsas faktor neftin dünya bazar qiymətləridir. Əksər beynəlxalq analitik mərkəzlərə görə, cari ilin sonunadək bu qiymətlər 80 dolların üzərində olacaq. Azərbaycanda dövlət büdcəsinin neftin 75 dollar qiyməti ilə yenidən hesablandığını nəzərə alsaq, ilin sonunadək büdcənin icrasında ciddi problemin yaranmayacağının daha gözlənilən olduğunu söyləyə bilərik. Neft bazarındakı əlverişli qiymət şərtləri Azərbaycanda iqtisadi artımın da hökumətin hədəf gözləntisi olan 3,8 faizin reallaşması ehtimalını artırır.

❑ Dünya SAKİT,
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 123 (8496) 17 iyul 2024

**Biləsuvarın həbsdə olan icra başçısı Mahir Quliyevin adı 500 min manatlıq məhkəmə işinə qarışıb. Söhbət Mahir Quliyevin icra başçısı olduğu dönəmdə dövlət büdcəsi hesabına tikdirdiyi “Gənclər Evi” və Bayraq Muzeyi" inzibati binalarının inşasını həyata keçirən şirkətə yarım milyon manat ödəniş etməməsindən gedir.**

# Həbsdəki icra başçısı yarım milyonu ödəməyib - məhkəmə işi

## Cəzası azaldılan Mahir Quliyev sahibkarları necə üz-üzə qoyub



Hər 2 inzibati binanın açılışı 2018-ci il sentyabrın 18-də baş tutub. Bu binaların tikintisi ilə bağlı ödənişin edilməməsinə görə 2 fərqli məhkəmə prosesi aparılıb. Yekunda hər 2 işə Ali Məhkəmənin Kommersiya Kollegiyasının sədri Kəmalə Abiyevanın sədrliyi ilə baxılıb. Hər iki inzibati bina ilə bağlı maliyyə qalmaqalı indiyədək davam edir. İnzibati binaları inşa edən “Perlit” şirkətinin rəhbəri Məhərrəm Ömrümov müqavilədə göstərilən pulun 450 min manatını hələ də Biləsuvar Rayon İcra Hakimiyyətindən ala bilmədiyini iddia edir. Tikintinin gedişində istifadə olunmuş inşaat materiallarının satışı ilə məşğul olan sahibkar Azər İsayev də illərdir pulunu ala bilmədiyini deyir. O, bu pulu “Perlit” şirkətinin rəhbərindən istəyir. Bu üzdən uzun müddətdir ayrı-ayrılıqda bir neçə məhkəmə çəkişməsi gedir. Məhərrəm Ömrümov 450 min manatını icra hakimiyyətindən, Azər İsayev isə pulunu ondan tələb edir. Şirkət rəhbəri Şirvan Kommersiya Məhkəməsində Biləsuvar Rayon İcra Hakimiyyətinə qarşı iddia qaldırıb. O, məhkəməyə icra hakimiyyəti ilə “Perlit” arasındakı müqaviləni də təqdim edib. Gənclər Evi və Bayraq Muzeyinin tikintisi, avadanlıqların alınmasından ötrü 1 milyon 350 min manatlıq satınalma müqaviləsi 2017-ci ilin dekabrında bağlanıb. Məhərrəm Ömrümov iddia ərizəsində yazır ki, tikinti işləri başa çatarkən icra hakimiyyətindən ona 900 min manat veriblər, 450 mini qalıb. O, bir müddət gözləyib pulun qalan hissəsinin ödənmədiyini görüncə, 2019-cu ilin noyabrında icra hakimiyyətinə üz tutub. Lakin pulunu ala bilməyib.

Bir müddət sonra - 2020-ci ilin aprelində icra başçısı Mahir Quliyev korrupsiya cinayətlərinə görə həbs olunub. Bu məsələ ilə bağlı məhkəmə araşdırmaları zamanı icra hakimiyyətinə sorğu göndərilib. Sorğuya cavab gəlib ki, Biləsuvar Rayon İcra Hakimiyyəti aparatının mühasibat sektorunda “Bayraq Muzeyi” və “Gənclər Evi”nin tikintisindən ötrü açıq tenderlə bağlı müqavilə, “Perlit” şirkətinə ilkin olaraq 900 min manat ödənilməsi və s. haqda heç bir sənəd yoxdur. Məhərrəm Ömrümovun əlində olan 1 milyon 350 min manatlıq satınalma müqaviləsinə isə heç bir izah verilməyib. Şirvan Kommersiya Məhkəməsi Məhərrəm Ömrümovun icra hakimiyyətinə qarşı 450 min manatlıq iddiasını təmin etməyib. Qərarı da belə əsaslandırıb ki, icra hakimiyyəti ilə şirkət arasında satınalma müqaviləsi bağlansa da, Bayraq Muzeyi və Gənclər Evini məhz “Perlit”in tikib təhvil verməsini təsdiqləyən sübut yoxdur. Şirkət rəhbəri bu qərardan apelyasiya şikayəti versə də, nəticə dəyişməyib. Amma iş Ali Məhkəməyə gedib çıxanda qərar fərqli olub.

**Ali Məhkəmə bu məsələnin yetərincə araşdırılmadığı qənaətinə gəlib və qərarında göstərib ki, aşağı instansiya məhkəmələri sözügedən binaların “Perlit” tərəfindən inşasına şübhə ilə yanaşırsa, o halda onları hansı şirkətin tikdiyinə aydınlıq gətirilməli idi**: “Yerli icra hakimiyyəti orqanlarının vəzifə və səlahiyyətləri nəzərə alınarsa, Biləsuvar Rayon İcra Hakimiyyətinin tikililərin kimin tərəfindən inşa olunmasından məlumatsız olması inandırıcı deyil”.

Ali Məhkəmə təkrar araşdırma üçün işi Şirvan Apelyasiya Məhkəməsinə qaytarıb. Ancaq apelyasiya instansiyasının budəfəki nəticəsi də əvvəlkindən fərqlənməyib. Məhkəmə şirkət rəhbərinin əleyhinə qərar verib. Məhkəmədə dindirilən iş icraçısı Elşən Cəfərov təsdiqləyib ki, hər 2 tikilinin inşasını “Perlit” şirkəti aparıb. Onun sözlərinə görə, tikinti prosesinin sonunda bir sıra işçilərin pulları tam ödənilməyib: “Məhərrəm Ömrümov deyirdi ki, pulu icra hakimiyyətindən tam ala bilməyib. Alan kimi işçilərin qalan maaşlarını ödəyəcək”.

Məhərrəm Ömrümov apelyasiya məhkəməsinin qərarından yenə Ali Məhkəməyə şikayət verib. Bu dəfə Ali Məhkəmədə də onun əleyhinə qərar verilib. Hakim Kəmalə Abıyeva da qərarında yazıb ki, Bayraq Muzeyi və Gənclər Evini onun tikməsini təsdiqləyən mötəbər sübutlar yoxdur. Bu proseslərlə yanaşı, inşaat materiallarının satışı ilə məşğul olan sahibkar Azər İsayevin də “Perlit”in rəhbərinə qarşı məhkəməsi gedib. O bildirib ki, Biləsuvarda Bayraq Muzeyi və Gənclər Evinin inşasından ötrü “Perlit” şirkətinə tikinti materialları verib və materialların pulu indiyədək ödənilməyib. O, Gəncə Kommersiya Məhkəməsində 156 min manat materialların pulunu, üstəlik, gecikməyə görə də 50 min manat tələb edib: “Məhərrəm Ömrümov bildirirdi ki, icra hakimiyyətindən pulun bir hissəsini alıb. Qalan pulu alan kimi ödəyəcək. Mən dedim ki, bizim aramızda belə razılaşma olmayıb, pulu mənə sən ödəməlisən. Hətta o vaxt icra başçısı Mahir Quliyevlə də görüşdüm, Məhərrəmin dediklərini ona çatdırdım, pulun ödənilməsi üçün kömək istədim. İcra başçısı dedi ki, pulun hamısını ödəyiblər. Söz verdi ki, Məhərrəmlə danışacaq...”

**Cavabdeh Məhərrəm Ömrümov onun iddiasını qəbul etməyərək deyir ki, Azər İsayevlə aralarında razılaşma olmayıb, tikinti materialları da keçmiş icra başçısı Mahir Quliyevin təkidi ilə verilib. Məhkəmə 156 min manatlıq iddianı təmin edib və Məhərrəm Ömrümovun üzərinə bu vəsaiti sahibkara ödəmək öhdəliyi qoyub.** “Materialların kimin göstərişi və ya xahişi ilə verilməsi nəticəni dəyişmir”, - məhkəmə qərarını belə əsaslandırıb.

Apelyasiya instansiyası da qərarı qüvvədə saxlayıb. Ali Məhkəməyə gəlib çıxanda isə bu iş də hakim Kəmalə Abıyevanın icraatına verilib. O da aşağı instansiyanın qərarını əsaslı sayıb. Beləcə, Məhərrəm Ömrümovun Bayraq Muzeyi və Gənclər Evinin inşasında istifadə olunmuş materiallara görə 156 min manat ödəməsi haqda yekun qərar çıxarılıb. “Perlit” şirkətinin rəhbəri Biləsuvar Rayon İcra Hakimiyyətinə qarşı iddiası üzrə Ali Məhkəmənin qərarından əlavə kasasiya şikayəti verib. Ali Məhkəmənin Plenumuna verilmiş şikayətə hələ baxılmayıb. O, əlavə kasasiya şikayətində hakim Kəmalə Abıyevanın eyni məsələ ilə bağlı bir-birinə zidd olan 2 qərarına diqqət çəkib. Qərarın birində Bayraq Muzeyi və Gənclər Evinin “Perlit” şirkəti tərəfindən tikilib təhvil verildiyi qəbul edilməyib, digərində isə şirkətin üzərinə həmin tikintilərdə istifadə olunmuş inşaat materiallarının pulunu ödəmək öhdəliyi qoyulub.

Yada salaq ki, Mahir Quliyev 2020-ci il aprelin 29-da həbs edilib. Sabiq icra başçısı külli miqdarda yeyinti, rüşvət və başqa ittihamlarla 11 il müddətinə azadlıqdan məhrum edilib. Ötən ay Ali Məhkəmə onun cəzasını 8 il 3 aya endirib. Mahir Quliyev 2006-cı ilədək Səbayel bələdiyyəsi sədrinin müavini olub. Daha sonra 14 il ərzində 2 rayonun - 2006-2011-ci illərdə Astara rayonunun, 9 il də Biləsuvarın icra başçısı vəzifəsində çalışıb. İndi Mahir Quliyev həbsdə günlərini sayır, pullarını ödəməyib üz-üzə qoyduğu sahibkarlar isə məhkəmə qapılarında ədalət axtarır.

❑ E.MƏMMƏDƏLİYEV,
“Yeni Müsavat”

# Hüseynbala Mirələmovun oğlu bu gün məhkəmə önünə çıxarılacaq

## Eks-deputat adının hallanmasına etiraz etdi, mətbuatı hədələdi



**Bu gün, iyulun 17-də Nəsimi Rayon Məhkəməsində hakim Həbibə Miriyevanın sədrliyi ilə eks-deputat Hüseynbala Mirələmovun oğlu Fərid Mirələmova qarşı iddiaya baxılacaq.**

Musavat.com xəbər verir ki, Fərid Mirələmov Şüvəlandakı bağ evində su pulunu ödəmədiyi üçün məhkəməyə verilib. İddiaçı “Azərsu” ASC-dir. Məsələ ilə bağlı ASC-nin yaydığı məlumatda qeyd olunur ki, Fərid Mirələmovun həmin ünvan üzrə mənzilə verilən içməli suya görə borcu yaranıb: “Ona qanunauyğun şəkildə xəbərdarlıq olunsa da, borcu ödəməyib. Abonent Nəsimi rayonunda qeydiyyatda olduğuna görə "İri Şəhərlərin Birləşmiş Su Təhcizatı Xidməti" iddaçı qismində bu rayonun məhkəməsinə müraciət ünvanlayıb".

Musavat.com-a daxil olan məlumatda qeyd olunur ki, Şüvəlandakı bağ evi əslində Hüseynbala Mirələmovundur. Həmin bağ evi Hüseynbala Mirələmov Maye Qaz İstehsalat Birliyinin rəisi, 1989-cu ildən Azərbaycan Dövlət Yanacaq Komitəsi sədrinin birinci müavini olduğu illərdə tikilib. Sonradan deputat olduğu dönəmlərdə bağ ərazisindəki villa sökülərək yeni üslubda tikilib. Fərid Mirələmova məxsus bağ evi isə Dübəndi qəsəbəsi ərazisində, Dübəndi bağlarında yerləşir. Fərid Mirələmov Dübəndidə deyil, vaxtilə atasının Şüvəlanda inşa etdirdiyi bağ evində yaşayır.

Mirələmovun Bakıda xeyli sayda ticarət obyektləri, biznes mərkəzləri, Şıx qəsəbəsində “Min bir gecə” istirahət mərkəzi var. Belə bir halda Mirələmovların əhalinin imkansız təbəqəsi kimi işlətdikləri suyun pulunu ödəməmələri anlaşılmır. Eyni zamanda Mirələmovların “Azərsu” ASC-nin “qara siyahısı”na düşdükləri şübhəsizdir. Adətən bu siyahıya ayı 200-300 manatla birtəhər başa vuranlar, bir də ödəmə qabiliyyəti olub vəzifəsinə güvənənlər düşür.

**Sabiq deputat Şüvəlandakı bağ evinin pulunun ödənməməsi ilə bağlı adının hallanmasına münasibət bildirib, Modern.az-a deyib ki, hadisənin görünməyən tərəfləri var:** “Oğlumun vaxtilə bir yerdə işlədikləri dostu var. O, mənzil şəraiti yaxşı olmadığına görə oğluma müraciət edib, onun Şüvəlandakı bağ evində qalmaq istəyini dilə gətirib. Oğlum da deyib ki, "get, qal". Bunlar oğlumun Şüvəlandakı bağ evində qalıb, bütün kommunal xidmətlərdən istifadə ediblər. Lakin su pulunu ödəməyiblər. Bağ oğlumun adına olduğuna görə onun adını yazıblar. Oğlum həmin adama zəng edib məsələni deyib. Elə dünən (srağagün -red.), ya əvvəlki gün həmin adam özü ödənişi edib".

**Mirələmov məsələ ilə əlaqədar mətbuatda adının hallanmasına etiraz edib, mətbuatı məhkəmə ilə hədələyib:** “Mən dəfələrlə müsahibə vermişəm ki, seçkilərdə namizədliyimi irəli sürməyəcəm. Məni bir məsələ maraqlandırır, lap tutaq ki, fərz edək, oğlum su pulunu ödəməyib, bəs mənim bu məsələyə nə aidiyyətim var? Mənim şəklimi qoyub, "sabiq deputatın oğlu məhkəməyə verildi" deyə başlıq yazıblar. Bu nə deməkdir? Lap deyək ki, oğlum su pulunu ödəməyib, onun şəklini qoyardın. Yoxsa mənim şəklimi qoyub, sabiq deputat yazıblar.

Mən bunu anlaya bilmirəm. Bu, ədalətsizlik və jurnalistikaya xəyanətdir. Mən politexnik institutunu bitirsəm də, 5 il “Azərbaycan Pioneri” qəzetinin ədəbiyyat şöbəsində baş redaktor işləmişəm. Onda bunlar heç dünyada yox idi. Mənə jurnalistika öyrədirlər? Nə məqsədlə bunu etdiklərini bilmirəm. Mən istəsəm, belə bir həvəsim olsa, onların səviyyəsinə ensəm, onları məhkəməyə də verə bilərəm".

Hüseynbala Mirələmovun su pulu ödənişi ilə bağlı fikirləri reallığı əks etdirirsə, o halda bugünkü məhkəmənin nəticəsi bəllidir. Şüvəlandakı bağ evinin su pulu ödənibsə, məhkəməyə bu haqda qəbz təqdim ediləcək və müvafiq qərar veriləcək.

❑ E.MƏMMƏDƏLİYEV,
Musavat.com

YENİ MÜSAVAT
N 123 (8496) 17 iyul 2024

# “Böyük Ermənistan” ideyasını əsassız sayan məşhur erməni - Mikoyan haqda bilmədiklərimiz

## Qafar Çaxmaqlının müəllifi olduğu yeni kitabda nələr var?

**Türkiyədə rəhmətlik Mustafa Çalıkın rəhbərlik etdiyi “Cədid” nəşriyyatında çapdan çıxmış, Erciyes Universitetinin professoru, ermənişünas alim Qafar Çaxmaqlının “Anastas Mikoyan: bolşevik bir ermənininin etirafları” adlı kitabı qardaş ölkədə maraqla qarşılanıb. Yaxın zamanlarda kitabın ikinci nəşri olacaq.**

Türkiyənin “erməni məsələsi ” ilə məşğul olan, bu sahədə araşdırmalar və kitablar yazan alimləri, araşdırmaçı jurnalistləri bu kitabın dəyərini yüksək qiymətləndiriblər. Dünya səviyyəli ermənişünas alim professor Kemal Çiçəkin həmin kitab haqqında qeydlərini təqdim edirik:

“Əziz dostum professor Qafar Çaxmaqlı ötən illərin birində Avrasiya Araşdırmalar Mərkəzində (AVİM) konfrans vermişdi. Həmin konfrans zamanı o, Anastas Mikoyanla bağlı bir neçə mühüm qeyd etdi. Konfransın sonunda ona dedim ki, Mikoyan erməni əsilli çox mühüm sovet dövlət xadimi idi, amma Türkiyədə onu heç tanımırlar. Bildirdim ki, görkəmli alimdir. Mehmet Perinçekin kiçik bir məqaləsi istisna olmaqla, Türkiyədə onun haqqında çox az məlumat var. Mikoyanın erməni məsələsində türk tezislərini dəstəkləyən çoxlu açıqlamalarının olduğunu və ermənilərin onu vətənə xəyanətdə ittiham etdiyini vurğuladım. Digər tərəfdən, əlavə etdim ki, Mikoyanla müqayisədə Ohannes Kaçaznuninin ölkəmizdə haqsız reputasiyası var. AVİM-in hörmətli rəhbəri, səfir Alev Kılıç bu qərardan sonra Mikoyanla bağlı dərin araşdırmanın məcburi olduğunu və bunu dostum Qafar Çaxmaqlı ilə birlikdə etməli olduğumuzu söylədi. Əlinizdə olan bu mühüm əsər - "Anastas Mikoyan: bolşevik bir ermənininin etirafları" bu tövsiyə əsasında yazılıb.



Anastas Mikoyan

Həqiqətən də Ohannes Kaçaznuni türklərin “erməni məsələsi” ilə bağlı tezisinə uyğun söylədiyi bir neçə cümlə sayəsində Türkiyədə çox yaxşı tanınsa da, erməni milliyyətçiliyi və daşnak əleyhdarı olan Mikoyan Türkiyədə az qala tanınmır. Bununla belə, Mikoyanın ermənilərin qondarma müstəqillik mübarizəsi ilə bağlı tənqidləri çox önəmlidir. Mikoyan həm erməni inqilabı zamanı, həm də Sovet Rusiyasında çox mühüm vəzifələrdə çalışmış mühüm şəxsiyyətdir. Ermənilərin müstəqillik uğrunda mübarizəsi, Türkiyə-Rusiya-Daşnak/erməni münasibətləri, Sovet İttifaqı dövründə erməni siyasəti haqqında çox ziddiyyətli fikirlərə malikdir. Buna baxmayaraq, bəzi istisnalar olmaqla, bütün bunların Türkiyədə tarixşünaslıqdan kənarda qalması təəccüblüdür. Erməni davası ilə bağlı əks fikirləri bir yana qalsın, hətta Türkiyənin Qurtuluş Savaşı ilə bağlı tesbitləri da çox önəmlidir. Bu səbəbdən əsərin əhəmiyyətini göstərmək üçün Mikoyan haqqında əldə etdiyim bəzi məlumatları oxucu ilə bölüşmək istəyirəm.

Əvvəla, 40 ildən artıq Sovet Rusiyası hökumətlərində mühüm vəzifələrdə işləmiş və xidmətlər göstərmiş dövlət xadimi Mikoyan orta təbəqəli və mühafizəkar bir ailənin övladı idi. Elə buna görə də atası onu dini təhsil almaq üçün Tiflisə göndərir. Lakin sonradan Eçmiədzinə gedib və təhsilini orada davam etdirir. Gözlənilənlərin əksinə olaraq, Mikoyan Müqəddəs Eçmiədzin kilsəsindəki təhsilinin sonunda ateist oldu. Onun xarakterinin formalaşmasında aldığı liberalizm və sosializm dərsləri daha böyük rol oynayıb. Rus inqilabi hərəkatına qoşulub. O, 1915-ci ildə, cəmi 20 yaşı olanda Eçmiədzin Fəhlə Sovetini yaradıb. 1917-ci ilin oktyabrında bolşevik inqilabı baş verəndə o, Qafqazın ən mühüm siyasi xadimlərindən biri kimi meydana çıxıb. O, Bakıya mühacirət edib, burada əvvəlcə erməncə “Sosial-Demokrat” jurnalını, sonra isə rusca “İzvestiya Bakinskoqo Soveta” qəzetini nəşr etməyə başlayıb. Bu karyerası ərzində Mikoyan gəncliyində erməni millətçiliyinə verdiyi dəstəkdən əl çəkərək erməni deyil, idealist bolşevik kimi davranmağa başlayıb. Bu xəttinə görə o illərdə həm azərbaycanlıların, həm də ermənilərin nifrətini qazanıb. Çünki onun müsavatçı kimi tanınan Azərbaycan türk millətçilərinin üsyanının yatırılmasında rolu olub. 1918-ci ildə Bakıda başlayan vətəndaş müharibəsi zamanı o, Qırmızı Ordunun 26 Bakı komissarlarından biri idi. Onun bu vəzifəsini icrası dövründəki fəaliyyəti bu əsərdə çox təfərrüatlı şəkildə əks olunduğu üçün burada təfərrüata varmayacağam. Bununla belə, qeyd etmək istərdim ki, Mikoyanın sirlərlə dolu siyasi həyatı ingilis əsgərlərinin Bakıya daxil olmasından sonra Həştərxana qaçması ilə başlayıb. Məhz bolşeviklərin müharibə apardığı menşeviklər qaçaq komissarları tutub edam edəndə yeganə sağ qalan Mikoyan idi. Onun xilas hekayəsi həyatı boyu sirr olaraq qalıb. 1921-ci ildə Bakı yenidən bolşeviklərin nəzarətinə keçəndə Mikoyan yenidən şəhərə qayıdıb və sirlərini silahdaşları ilə birgə ümumi məzarlıqda basdırıb. Bu hərəkəti ilə o, ermənilər tərəfindən xəyanətdlə günahlandırılıb.

1921-ci ildə Rusiya Kommunist Partiyası Mərkəzi Komitəsinə seçildikdən və Leninlə dostluğundan sonra o, indi erməni yox, kommunist idi. Onun bu xarakteri Stalin tərəfindən Kommunist Partiyasının Şimali Qafqaz Bürosunun rəhbəri kimi Rostova göndərildikdə daha da gücləndi. Öz irqindən olan insanlara deyil, sovet ideallarına sədaqəti onu Siyasi Büro üzvlüyünə də yüksəldib. Onun Türkiyə-Ermənistan mübarizəsi ilə bağlı bəzi fikirləri ümumiləşdirsək, nə demək istədiyimizi daha yaxşı anlayacağıq. O, gəncliyində türk ordusuna qarşı vuruşmaq üçün ilk dəfə Andranikin dəstəsinə qoşulsa da, bolşevik Mikoyan olaraq indi “Böyük Ermənistan” ideyasını əsassız hesab edən şəxs kimi tarixə düşüb. O, 1919-cu ildə çıxışlarında və yazılarında erməni hərəkatını sərt ifadələrlə tənqid edib. Mikoyan yenicə tanış olduğu Leninə göndərdiyi hesabatda millətçi hisslərdən uzaq, sağlam düşüncəli kommunist obrazı yaratmaq potensialını nümayiş etdirdi. O yazırdı ki, erməni milli hərəkatı azadlıq hərəkatı olmaqdan çıxıb və mürtəce, işğalçı (“imperialist”) hərəkata çevrilib. Bu səbəbdən o, “Böyük, vahid və müstəqil Ermənistan” ideyasını zərərli, cinayətkar və mürtəce hesab etdiyini və Kommunist Partiyasının bu idealist ideyaya qarşı mübarizə aparmalı olduğunu bildirirdi.







Mikoyan imperialistlərə qarşı mübarizə aparan Türkiyənin sovetlərin dostu olduğunu və imperialistlərin aləti olan Daşnaksütyunla mübarizə apararaq erməni millətinin azadlığına dəstək verəcəyini iddia edirdi. Türkiyə köhnə Türkiyə deyildi və Ermənistana qarşı heç bir təcavüzkar niyyəti ola bilməzdi. O zaman erməni millətçilərinə dəstək vermək çox yanlış idi. Ermənistanın Türkiyə üzərində mümkün qələbəsi Yaxın Şərqdə imperializmi gücləndirərdi. Məhz buna görə də Mikoyanın fikrincə, erməni kommunist bolşevikləri Ermənistanın məğlubiyyətini tezləşdirməli və Ermənistanın sovetləşməsini təmin etməli idilər. Mikoyanın daşnakların başçılıq etdiyi erməni davası ilə bağlı tənqidləri bunlarla məhdudlaşmır.

Məsələn, Mikoyanın fikrincə, Qara dənizdən Aralıq dənizinə qədər yeddi əyaləti əhatə edən “Böyük Ermənistan”ın yaradılması ideyası kobud xəyaldır. Bu layihənin arxasında mürtəce rus generalı Denikin, şovinist ermənilər və imperialistlər dayanır. Bu, regionun reallıqlarına ziddir, çünki müsəlmanlar xəyal edilən torpaqlarda çoxluq təşkil edirlər. Bu səbəbdən “Böyük Ermənistan” əhalinin əksəriyyətinin iradəsi əsasında yaradıla bilməz və bu, yalnız imperialist silahlarının gücü ilə tətbiq olunacaq. Türkiyənin imperialistlərə qarşı mübarizə apardığı bir mühitdə Türkiyə ilə ermənilər üz-üzə gəlməməlidir. Mikoyanın Birinci Dünya müharibəsi və ermənilərin köçü ilə bağlı fikirləri erməni tezislərini müdafiə edənləri utandıracaq qədər gerçəkdir. Mikoyan iddia edir ki, Türkiyə erməniləri “daşnakların uzaqgörən və avantürist siyasəti nəticəsində 300-500 min arasında qurban ediliblər”. Mikoyan yenə də Azərbaycan-Ermənistan münaqişəsini düzgün hesab etmədiyini bildirir və iki ölkəni müharibə həddinə çatdıran Qarabağ məsələsi ilə bağlı fikirlərini bildirərkən deyir ki, Zəngəzur və Qarabağ torpaqları Azərbaycan sərhədləri daxilində olmalıdır. Onun fikrincə, Qarabağ Azərbaycansız yaşaya bilməz və ona görə də Azərbaycana bağlanmalıdır.

Göründüyü kimi, Mikoyan erməni məsələsi ilə bağlı çox mühüm qərarlar verib, erməni tarixşünaslığını alt-üst edəcək etiraflar edib və erməni iddialarını ifşa edib. Ona görə də onun fikirlərinin bütünlüklə rus və erməni mənbələrinə əsaslanaraq üzə çıxarılıb bu günə qədər Türkiyədə tanıdılmaması böyük çatışmazlıq idi. Qafar Çaxmaqlı Mikoyanın həyatına və erməni araşdırmaları ədəbiyyatına böyük töhfə verib".

❑ **Professor Dr. Kamal Çiçək**

# Azərbaycan nömrə nişanlı avtomobil Ermənistanda



**Medi-aHub-ın izləyicilərindən biri Baqrataşen-İcevan yolunun hissəsindən video çəkib, orada Azərbaycan loqosu, AZ 99ZX-491 dövlət nömrə nişanlı yük maşınının Tavuş vilayətinin İcevan şəhəri istiqamətində hərəkət etdiyi aydın görünür.**

Musavat.com Demokrat.az-a istinadən xəbər verir ki, bu barədə erməni mediası məlumat yayıb.

“Mən ilk dəfədir belə bir şey görürəm, amma Baqrataşendə deyirdilər ki, son vaxtlar tez-tez görünürlər”, - deyə həmsöhbətimiz qeyd edib.

Videonu lentə alan Tavuşlu şəxs sərhədi keçdikdən sonra İcevana çatmamış Azərbaycan nömrələrinin rus nömrələri ilə əvəz olunduğunu görüb.

“Onlar meşəlik ərazidə saxlayıb, nəqliyyat vasitəsinin nömrələrini rus nömrələri ilə əvəzləyiblər və "kuzov"un üzərində yazılan çoxlu rəqəmlərin üzərini plastik əşya ilə örtüb İcevana gediblər", - deyə o əlavə edib.

Qeyd edək ki, Azərbaycan nömrə nişanlı avtomobil cümə günü, iyulun 12-də Ermənistan ərazisinə daxil olub. Azərbaycanlıların Ermənistanda nə işi var və Gürcüstan ərazisindən nə daşıyırlar?

YENİ MÜSAVAT
N 123 (8496) 17 iyul 2024

**Azərbaycan əhalisinin sayı cari ilin əvvəlindən 16 376 nəfər və ya 0,2 faiz artaraq 2024-cü il iyun ayının 1-i vəziyyətinə 10 197 146 nəfərə çatıb. Bu barədə məlumatı Dövlət Statistika Komitəsi açıqlayıb. Bildirilib ki, əhalinin ümumi sayının 54,5 faizini şəhər, 45,5 faizini kənd sakinləri, 49,8 faizini kişilər, 50,2 faizini isə qadınlar təşkil edir.**

# Genofondumuz risklə üz-üzə - quru rəqəmlərin arxasındakı təhlükə

## Sosioloq: "Təkcə Azərbaycanda deyil, qlobal miqyasda da evlilik yaşı artır..."



Lakin ilin ilk 5 ayında Azərbaycanda 17 448 nikah, 8 795 boşanma qeydə alınıb. Əhalinin hər 1000 nəfərinə nikahların sayı 4,6-dan 4,1-ə, boşanmaların sayı isə 2,2-dən 2,1-ə qədər azalıb. 5 ayda Azərbaycanda boşananların sayının azalması yəqin ki, ən əvvəl nikahların azalması ilə bağlıdır. Başqa yandan, evlənənlər azalırsa, demək, əhalinin qocalması (gənclərin azalması) tendensiyası da güclənir.

Bəs ölkədə ailə quranların sayı niyə azalır? Azalmada iqtisadi amillərin, internetin (zəmanə amili), psixoloji faktorların rolu nə qədərdir. Qısası, quru rəqəmlərin arxasındakı gerçək nədən ibarətdir və çıxış yolu nədir? Ailə mühəndisləri nə təklif edir? Axı əhali sayı, demoqrafik inkişaf hər şeydən öncə genofond, milli təhlükəsizlik məsələsidir.

Mövzu ilə bağlı **sosioloq Üzeyir Şəfiyev** "Yeni Müsavat"a danışıb. Sosioloq qeyd edib ki, ölkədə bütövlükdə gənclərin sayı azalmağa başlayıb ki, bu da nikahların sayına mühüm təsir göstərir: "Bəli, Statistika Komitəsinin verdiyi məlumatdan da görürük ki, ölkədə nikahların sayı azalır, boşanmaların sayı isə artır və bunun da bir çox səbəbləri var. Nikahlar niyə azalır?

Öncə qeyd edim ki, Azərbaycanda, ümumiyyətlə, gənclərin sayında azalma var. Məsələn, əgər 10 il əvvəl ölkə əhalisinin 28-30 faizi gənclər təşkil edirdisə, indi 20-21 faiz civarındadır. Yəni gənclərin sayı əhalinin digər təbəqələrinə nisbətən azalıb. Beləliklə, əgər gənclərin sayı azalıbsa, demək, nikahların sayına təsir edəcək.

İkinci məqam ondan ibarətdir ki, ali təhsil almaq və digər məqsədlərlə bağlı gənclərin xaricə axını artıb. Bu amil də ölkədəki gənclərin sayına mühüm təsir göstərir.

Digər məqam isə ondan ibarətdir ki, həm qızlar, həm də oğlanlar arasında evlilik yaşı getdikcə artır. Bu gün gənclər əvvəlcə təhsil almaq, karyera qurmaq, mənzil-məişət şəraitini yaxşılaşdırmaq, daha sonra ailə həyatı qurmaq istəyirlər. Bu da qızlar arasında nikah yaşını 23-24, oğlanlar arasında isə 30-35 yaşa gətirib, çıxarır.

Ümumiyyətlə, son vaxtlar təkcə Azərbaycanda deyil, qlobal miqyasda da evlilik yaşı artmaqdadır. Hətta bəzi ölkələrdə "subaylıq sindromu" adlanan anlayış da var. Çin, Yaponiya və s. kimi ölkələrdə insanlar daha çox virtual həyat yaşayırlar. Hətta belə ölkələrdə bu səbəbdən demoqrafik böhran proqnozlaşdırılır. Hələ ki bu bizim ölkədə tendensiya formasını almayıb.

Lakin müasir, qlobal dünyada insanlar daha eqosentrik, narsist həyat yaşayır, öz komfortlarını düşünürlər. Hətta it-pişik götürüb saxlayırlar, amma ailə qurub, uşaq sahibi olmaq istəmirlər. Bu o deməkdir ki, biz gənclərə ailələrdə, orta və ali məktəblərdə ailə dəyərlərini düzgün aşılaya bilmirik. Bu istiqamətdə də işlər görmək lazımdır. Hesab edirəm ki, bununla bağlı orta və ali məktəblərdə xüsusi fənlər olsa, yaxşı olar".

**Sosioloqa görə, problemdən çıxış yolu olaraq ilk öncə gənclərin mənzil-məişət şəraiti yaxşılaşdırılmalı, məşğuliyyət məsələsi təmin olunmalıdır:** "Bununla bağlı gənclər arasında çox ciddi problemlər var. Çox yaxşı olardı ki, bunun qarşısını almaq üçün gənclər, gənc ailələr üçün sosial dəstək layihələri həyata keçirilsin. Bununla bağlı artıq qardaş Türkiyədə təcrübə var. Belə ki, orada gənclər, gənc ailələrin mənzil-məişət şəraitinin yaxşılaşdırılması üçün xüsusi fond yaradılıb, hansı ki, ölkə gəlirlərinin bir hissəsi bu fonda daxil olur və buradan gənclərə, gənc ailələrə faizsiz kreditlər verilir. Hətta həmin krediti 4 il sonra hissə-hissə, güzəştli şərtlərlə ödəmək imkanı var. Bu da demoqrafik təbii artımı dəstəkləmək üçün çox uğurlu layihədir. Ölkəmizdə də bu cür layihə tətbiq oluna bilər".

**Sosioloqun fikrincə, regionlardakı gəncləri də daim nəzərdə saxlamaq lazımdır**: "Xatırladım ki, əvvəllər təbii artım regionlarda daha çox olurdu. Amma müşahidə edirik ki, indi regionlarda gənclər daha çox paytaxta və digər böyük şəhərlərə axın edir, nəticədə kəndlər boş qalıb və bu da təbii artıma, nikah sayına təsir göstərir. Ona görə də çalışmaq lazımdır kəndlə şəhər arasında fərq azaldılsın, məşğulluq məsələləri həll olunsun, mənzil-məişət şəraitləri yaxşılaşdırılması üçün onlara torpaq sahələri verilsin. Bunları da həyata keçirmək üçün güzəştli ipoteka şərtləri olmalıdır ki, gənclər regionlarda qalsınlar, orada ailə qursunlar. Gənc oğlanlar paytaxta axın edir, qızlar isə kənddə qalır, qocalırlar. Hesab edirəm ki, bu məsələ ətrafında ciddi düşünməliyik".

**Sosioloq son vaxtlar klassik Azərbaycan dəyərlərinə kənardan basqılar, təsirlər olduğunu da vurğulayıb:** "Bu gün klassik Azərbaycan dəyərlərinə xarici layihələr, televiziya verilişləri, sosial şəbəkələr səviyyəsində təsirlər, təzyiqlər var. Efirlərdə sanki boşanmış ailələr, subaylıq təbliğ olunur. Halbuki nümunəvi ailələr efirlərə çıxarılmalı, həmin ailələr, ailələrini qoruyub saxlayan, dəyərlərə hörmətlə yanaşan ağsaqqallar, ağbirçəklər gənclərə nümunə göstərilməlidir".

**Ekspert axır vaxtlar ölkədə boşanma sayının artmasından da danışıb:** "Boşanmaların müxtəlif səbəbləri var. Burada maddi-iqtisadi, psixoloji və digər səbəblər ola bilir. Əsas səbəblərdən də biri budur ki, insanlar qlobal cəmiyyətə inteqrasiya etməyə başlayandan oradan tərzləri götürməyə başladı ki, bu da düşüncələrdə dəyişmələr yaratdı. Belə ki, əvvəllər Azərbaycanda həm qadınlar, həm də kişilər üçün boşanma böyük bir travma, hətta faciə kimi qarşılanırdısa, indi həm kişi, həm də qadınlar üçün tolerant olub. Bu isə yaxşı perspektiv vəd etmir.

Əvvəllər həm də boşanmalar ona görə az idi ki, qadınlar iqtisadi fəal, müstəqilliyə malik deyildilər, kişilərdən asılı idilər, patriaxal cəmiyyətdə yaşayırdılar. Lakin indi iqtisadi fəal kütləyə çevrildikdən sonra əvvəlki ağır şərtlərlə yaşamaq istəmir, dərhal boşanma qərarı verirlər. Hesab edirəm ki, biz klassik Azərbaycan ailəsinə qayıtmalı, onun dəyərlərini qorumalıyıq".

❑ **Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**

# "Atasının evdə bir qram hörməti yoxdur, adam yerinə qoyulmur..." - qalmaqal


Tağı Hüseynov

**Müğənni Ofelya Şabanova yenə qalmaqallı sözləri ilə gündəmə gəlib. Belə ki, ifaçının efirdə səsləndirdiyi "ərimin corabını özüm geyindirirəm, ayaqqabısını da təmizləyirəm" kimi fikirləri və həmin verilişdə qonaq olan olan hüquqşünas Tağı Hüseynovun da bu davranışların ailədə vacib olduğunu qeyd etməsi cəmiyyətdə birmənalı qarşılanmayıb. Bəzi adamlar ailədə qadının kişiyə qulluq etməsini normal qəbul etsə də, elələri də var ki, bunun qadın hüquqlarınf zidd olduğunu bildirir və qadının əzilməsini qəbul etmirlər.**

"Yeni Sabah"a məsələ barədə açıqlama verən **hüquqşünas Tağı Hüseynov** həmin verilişdə səsləndirdiyi fikirlərin müzakirə yaratmasına belə münasibət bildirib: "Verilişdə dediklərimin hamısının məcburi olduğunu deməmişəm. Bu, mənim öz ailəmdə olan bir haldır. Mən evə hər gün yorğun gəlirəm, ya da hər gün mənə corab geyindirilir deyə bir şey yoxdur. Kişi çox yorğun olanda əgər onun xanımı corablarını geyindirirsə, burada təəccüblü heç nə yoxdur. Ayaqqabının təmizlənməsi məsələsinə individual yanaşmaq lazımdır. Azərbaycan ailələrinin hamısında eyni model olmaya bilər. Bizdə isə ailə modeli bu formadadır. Bu günə qədər mən yoldaşımı nəyəsə görə nə döymüşəm, nə də vurmuşam. Nə də ki, ayaqqabı ilə bağlı hansısa bir tapşırıq, göstəriş verməmişəm. O? gözünü açıb, evində belə görüb ki, qadın kişiyə qulluq etməli, ayaqqabısını silməlidir. Burada nə var ki? Gözünü açıb və belə görüb-götürdüyü üçün bu kimi şeylər nə yoldaşım, nə də mənim üçün təəccüblüdür. Həqiqətən də mən 10 dəfə də evdən çıxsam, ayaqqabım təmizlənməlidir".

**T.Hüseynov qeyd edib ki, əgər bir xanım ərinin könlünü xoş etmək, razı salmaq üçün ayaqqabısını silib, corabını geyindirirsə, təəccüblənməli heç nə yoxdur:** "Elə ailələr var ki, bunu xoş qarşılamır. Bəzi ailələrdə isə kişinin evdə zərrə qədər hörməti yoxdur. Kişini, ümumiyyətlə, adam yerinə qoymurlar. O kişi yorğun yox, hətta ölmüş belə olsa, onun corabını geyindirən olmaz.Yaxud xanımı heç elə kişinin ayaqqabısını belə silmir, deyir ki, canın çıxsın özün sil. Buna etiraz edənlər görüb ki, atasının evdə bir qram hörməti yoxdur, onu adam yerinə qoymurlar və ata istəsə belə, nə ayaqqabısını təmizləyən, nə də corabını geyindirən olacaq. İkinci etiraz edənlər qrupu isə hədsiz dərəcədə Amerika filmləri, bizim ailə modelinə yad olan seriallara baxaraq, deyir ki, mən ərimə yemək də bişirməli deyiləm. Belə desək, onlar filmlərdə gördüklərini həyatda tətbiq etmək istəyənlərdir".

**Hüquqşünas həmçinin əlavə edib ki, ailələr yazılı qanunlarla idarə olunmur:** "Bir hüquqşünas kimi deyə bilərəm ki, qadının ərinin corabını geyindirib, ayaqqabısını təmizləməsi qanunlarda qeyd olunmayıb, hansısa hüquq norması deyil. Qanunvericilikdə belə bir məcburiyyət yoxdur. Amma ailələr heç vaxt yazılmış qanunlarla idarə olunmur. Bəzi buna etiraz edən kütlə bildirir ki, deyilənlər qanunda yoxdur və buna görə də ola bilməz. Fəqət, onlar anlamırlar ki, heç kəs evlənən zaman Ailə Məcəlləsini qarşısına qoyub demir ki, baxaq görək kim hansı işi görməlidir. Çünki məcəllədə ailənin idarə olunması ilə bağlı heç nə göstərilmir. Əslinə qalsa, bütün bunlar boşluqlardır.

Hazırda Azərbaycanın minilliklərdən süzülüb gələn, formalaşan adət-ənənələri, dəyərləri ilə idarə olunan ailə modeli kənarda qalıb. Bəziləri yeni, bizə yad olan ailə modeli kəşf etmək istəyirlər. Elə bilirlər ki, bununla da ailələr xoşbəxt olacaq. Çox yox, 20-30 il əvvələ qayıdaq. Minilliklər ərzində formalaşan model ilə qurulan ailələrə, onların davamlılığına, digər bir tərəfdən isə indiki yeni ailə modeli ilə can atıb evlənən, guya xoşbəxt olmaq istəyənlərə də nəzər salaq. Hansı dövrdə boşanmalar daha çox olub? İndi yoxsa əvvəl? Hazırda biz bu kimi problemlərlə daha çox qarşılaşırıq. Əxlaqsızlıq, dəyərlərin azalması indi daha çoxdur. Bunun səbəbi isə Amerikadan, oradan-buradan və s. sırınmış, qondarma ailə modelində ayaqqabı geyindirmək də, corabını geyindirmək də yoxdur. Bu ailə modeli heç bir mənəvi, əxlaqi dəyərə əsaslanmır. Etiraz edənlər də həmin modeli öz ailələrində artıq tətbiq edən, ya da bunu arzulayan şəxslərdir. Mən öz ailəmdə heç bir yeni model tətbiq etməmişəm, qədimdən gələn ailələr kimi mənəvi dəyərlərə xas olan bir ailəm var. Bizə başucalığı gətirən həmin ailə modelini həmişə fəxr edərək tətbiq etmişəm. Şükür Allaha, xoşbəxt ailəm var. Kim istəsə, buna etiraz edə, yeni modelə uyğun ailə qura bilər. Görək hansı model daha dayanıqlı və uzunömürlü, xoşbəxt ailə yaradacaq".

YENİ MÜSAVAT
N 123 (8496) 17 iyul 2024



# Rusiyada miqrantlar üçün yeni qaydalar - ana dilində pıçıldaşmaq olmaz...

**Rusiya Federasiyasının Milli İşlər üzrə Federal Agentliyi Mərkəzi Asiyadan olan miqrantlar üçün adaptasiya kursu keçir. Musavat.com Rusiya mediasına istinadla xəbər verir ki, kurs 70 dəqiqəlik mühazirədən ibarətdir və Rusiyada ümumi ünsiyyət qaydalarını da özündə əks etdirir.**

Federal agentlik rəhbərinin müavini Stanislav Bedkin bildirib ki, miqrantların sosial-mədəni adaptasiyası kursu beş regionda - Saxa Respublikasında (Yakutiya), Krasnodar və Perm ərazilərində, Kalininqrad və Moskva vilayətlərində sınaqdan keçirilib. Mühazirə materialında Mərkəzi Asiyadan olan miqrantlara ölkədə ümumi ünsiyyət qaydaları, ictimai nəqliyyatda, küçədə, əks cinslə davranışın əsasları, habelə bayram günləri ilə tanışlıq təklif olunur.

"Dil və mədəniyyət biliyi Rusiyada yaşamaq və işləmək üçün əvəzsiz şərtdir. Rus dilini bilməniz işdə, nəqliyyatda, mağazada, klinikada, bankda, eləcə də polislə söhbətlərdə rahat ünsiyyət qurmağa imkan verəcək səviyyədə olmalıdır. Rusiya çoxmillətlidir, lakin hamı rus dilində danışır", - sənəddə qeyd olunur.

Məsələn, mühazirə aydınlaşdırır ki, "qardaş" və ya "bacı" ünvanları qohum və ya yaxın tanış olmayan insanlarla ünsiyyət üçün uyğun deyil, ictimai nəqliyyatda bir-biri ilə yüksək səslə danışmaq, telefonla, videozənglə danışmaq, çirkli paltarda gəzmək qadağandır.

Bundan başqa, miqrantlara tövsiyə olunur ki, küçədə yoldan keçənlər haqqında öz ana dilində müzakirə aparmamalı, başqa insanların yanında öz ana dilində pıçıldaşmamalıdırlar. Həmçinin qeyd olunur ki, Rusiyada hər hansı dinə münasibət nümayiş etdirmək adət deyil, bunun üçün məscidlər, kilsələr, sinaqoqlar var və heyvan qurbanları da qəbuledilməzdir.

"Həmçinin, məsələn, Rusiyada toyda havaya atəş açmaq ənənəsi qəbuledilməzdir və məhkəmə prosesinə səbəb ola bilər", - deyə mühazirə qeyd edir.

Qarşı cinslə davranışın əsaslarına aid müddəada qeyd olunur ki, tanış olmayan qadınlara və kişilərə fiziki toxunmaq olmaz, bu cür hərəkətlər xoşunuza gələn qadının və ya kişinin diqqətini cəlb etməyə çalışarkən qısnama kimi qəbul edilə bilər.

Miqrantlar həmçinin Rusiyanın əsas bayramları və onları müşayiət edən adət-ənənələrlə tanış olmağa dəvət olunurlar. Mühazirəçi Yeni il, Milad, Vətənin Müdafiəçisi Günü, Beynəlxalq Qadınlar Günü, Qələbə Günü, Rusiya Günü və Milli Birlik Günü haqqında danışacaq.

Kurs zamanı miqrantlara qeyri-qanuni fəaliyyət nəticəsində tez qazanc əldə etmək üçün işləmək, qanunsuz sənədlər hazırlamaq, millətlərarası münaqişələrə girmək barədə xəbərdarlıq ediləcək.

"Mitinqlərə və nümayişlərə getməyin - adətən onların təşkilatçıları sizdən öz məqsədləri üçün istifadə etmək istəyirlər. Rusiyada hakimiyyətin icazəsi olmadan mitinq və nümayişlərin keçirilməsi qadağandır. İştirakçılar saxlanılır və cərimələnir, xarici vətəndaşlar isə Rusiyadan deportasiya oluna bilər", - kurs materialında deyilir.

❑ **Musavat.com**

# Kiyev can hayındadır, Moskva qələbə, Vaşinqton quyruq axtarır...

## **Ekspert:** "Vasitəçilər nə qədər çox olarsa, danışıqlar bir o qədər perspektivsizləşir"

**"İkinci Qlobal Sülh Sammitində Rusiyanın da iştirak edəcəyinə inanıram". Ukrayna prezidenti Vladimir Zelenski belə deyib. Onun fikrincə, İkinci Sülh Sammiti üçün lazım olan bütün məqamlar noyabra qədər hazırlanacaq və sülh müzakirələri 3 mərhələdə aparılacaq.**

İlk mərhələ iyulun sonu - avqustun əvvəlində Qətərdə baş tutacaq. Sammitin bu mərhələsində enerji təhlükəsizliyi planları masaya yatırılacaq. Avqustda Türkiyədə keçirilməsi nəzərdə tutulan ikinci iclas Azov və Qara dənizlərdə gəmiçiliyin təhlükəsizliyinə və pulsuz naviqasiyanın yaradılması mövzusuna həsr olunacaq. Toplantıda həmçinin ərzaq təhlükəsizliyi məsələsi müzakirə ediləcək. Sentyabrda Kanadada keçiriləcək son iclasda isə hərbi əsirlərin mübadiləsi və ukraynalı uşaqların Rusiyadan qaytarılması məsələləri masaya yatırılacaq.

Zelenskinin sülh planının əsas məqsədi Ukraynanın ərazi bütövlüyünün BMT Nizamnaməsi əsasında bərpasına, Rusiya qoşunlarının Ukrayna dövlətinin ərazisindən tamamilə çıxarılmasına, müharibənin başa çatmasının nəticələrinin qeydə alınmasına və digər məqamlara nail olmaqdır. Rusiya prezidenti Putinin növbəti sülh sammitinə dəvət oluna biləcəyini istisna etməyən Zelenski, bununla belə, rus liderin danışıqlarda şəxsən iştirakını gözləmir. O hesab edir ki, "rus diktatoru ölkəsindən kənara çıxmaqdan çox qorxur" və böyük ehtimalla toplantılara gəlmək istəməyəcək.

Maraqlıdır ki, bugünlərdə Rusiya xarici işlər nazirinin müavini Mixail Galuzin ölkəsinin rəsmilərinin Ukraynanın təşkil etdiyi növbəti sülh sammitində iştirak etməyəcəyini söyləmişdi. Galuzin bunu onunla izah etmişdi Ukrayna prezidentinin sülh formulu "tamamilə çıxılmaz" motivlər ehtiva edir və "ultimativ" xarakter daşıyır. Rusiya isə heç bir ultimatuma boyun əymək niyyətində deyil. Rusiya rəsmisi bu fikirləri söyləyərkən Ukrayna prezidenti öz sülh təklifini irəli sürməmişdi.

Bəs bu təklif Rusiya tərəfindən müsbət qarşılana bilərmi? Ümumiyyətlə, dünənə qədər Rusiya lideri ilə görüşməyə tam qarşı çıxan Zelenskinin indi onu sülh sammitinə dəvət etməsi hansı zərurətdən irəli gəlir?

**Siyasi şərhçi Heydər Oğuz "Yeni Müsavat"a açıqlamasında bildirib ki, Zelenskinin bundan əvvəl irəli sürdüyü "Rusiyasız sülh sammiti" formulu mübahisəli yanaşma idi:** "Çünki sülh danışıqları yalnız iki qarşı tərəfin iştirakı ilə mümkündür. Onlardan birinin danışıqlarda iştirak etməməsi sülhyaradıcı missiyanı öz hədəfindən uzaqlaşdırır və real sülh əldə etməyin qarşısını alır. II Qarabağ müharibəsindən sonra, hətta ondan əvvəl Minsk Qrupu çərçivəsində Azərbaycanla Ermənistan arasında aparılan sülh danışıqları da sübut etdi ki, vasitəçilər nə qədər çox olarsa, danışıqlar bir o qədər perspektivsizləşir. Çünki bütün vasitəçilər öz maraqlarını da müzakirələrin gözünə qatırlar və əsas tərəflərin anlaşmasına



izn vermirlər. Əksinə, vasitəçilərsiz və birbaşa aparılan danışıqlarda daha tez və effektli nəticələr əldə etmək mümkündür. Bu mənada Zelenskinin II Sülh Sammitinə Rusiya tərəfini də dəvət etməsi uğurlu addım kimi qiymətləndirilə bilər".

**Bununla belə, siyasi şərhçi Rusiyanın sözügedən təklifə müsbət yanaşacağına inanmır:** "Məsələ burasındadır ki, Kraml Ukraynanın çarəsiz vəziyyətə düşdüyündən bu təkliflə çıxış etdiyini düşünür. Zelenskinin Vaşinqtonda keçirilən NATO sammitindən sonra həmin təklifi irəli sürməsi də Moskvanın bu düşüncəsini möhkəmləndirir. Belə təsəvvür yaranır ki, Ukrayna tərəfi Vaşinqtondan arzuladığı dəstəyi ala bilmədiyindən bu fikrə düşüb. Üstəlik, bu cür düşünən təkcə Rusiya da deyil. Ukraynanın müttəfiqləri belə, ABŞ-ın sona qədər Kiyevin arxasında dayanacağına inanmırlar.

Avropa ölkələrinin bu inamsızlığının ən bariz nümunəsi Böyük Britaniyanın yeni baş naziri ilə Zelenski arasında Vaşinqtonda əldə edilən razılaşmanın aqibətidir. Bilirsiniz ki, NATO sammitinin ilk günü İngiltərə baş naziri ilə Zelenski arasında əldə olunan razılaşmaya əsasən, Ukrayna bu ölkədən aldığı uzaqmənzilli silahlardan Rusiyanın dərinliklərinə atəş aça bilərdi. Üzərindən 2 gün keçməmiş London bu sazişdən geri çəkildi. Böyük Britaniyanın Müdafiə Nazirliyindən mediaya verilən açıqlamada "Storm Shadow" ("Fırtına Kölgəsi") raketlərinin 3 dövlətin birgə istehsalı olduğu açıqlandı və bildirildi ki, ondan necə istifadə edilməsi barədə razılıq da bütün istehsalçılardan alınmalıdır, bu isə mümkün deyil".

**Bənzər hadisənin Polşa ilə də yaşandığını bildirən siyasi şərhçi xatırladtı ki, sammitdən əvvəl Polşa baş naziri Donald Tuskla Zelenski arasında Ukraynanın hava sahəsini birgə müdafiəsi ilə əlaqədar saziş bağlanmışdı:** "İyulun 10-da isə ABŞ Milli Təhlükəsizlik Şurasının sözçüsü Con Kirbi mövzu ilə bağlı demişdi ki, ABŞ bu ideyanın əleyhinədir. Çünki müharibənin yayılmasına yol aça bilər və bu, "nə ukraynalılar, nə polyaklar, nə də başqaları üçün yaxşı nəticələnər".

**İyulun 14-də Ukraynada telemarafonda çıxış edən NATO Baş katibi Stoltenberq isə sözügedən anlaşmaya bu sözlərlə nöqtə qoymuşdu:** "NATO-nun siyasəti dəyişməz olaraq qalır - biz bu münaqişədə iştirak etməyəcəyik. Biz münaqişənin bir hissəsi olmayacağıq. Beləliklə, biz Rusiya təyyarələrinin məhv edilməsində Ukraynaya dəstəyimizi davam etdirəcəyik, lakin NATO birbaşa iştirak etməyəcək".

**Heydər Oğuza görə, NATO ölkələri rəsmiləri bu cür çıxışları ilə faktiki olaraq Ukraynanı hələ indidən Rusiya qarşısında müdafiəsiz qoymağa qərar veriblər:** "Qabaqdan bir də NATO-nun əsas lokomotivi sayılan ABŞ-da Trampın hakimiyyətə gəlmə ehtimalı getdikcə güvvətlənir. Trampın isə Ukrayna savaşına münasibəti bəllidir. Böyük ehtimalla o, Rusiyanı bir od topu kimi Avropa ölkələrinin qucağına atıb özü kənara çəkiləcək. Nəticədə ABŞ-ın bu hərəkətindən ən çox əziyyət çəkən Ukrayna olacaq. Məncə, Zelenski bu qaranlıq perspektivi anlayır və indidən Rusiya ilə danışıqlara başlamağa çalışır. Amma dərd burasındadır ki, Putin də Ukraynanın həssas durumla qarşılaşdığının fərqindədir və bu da onu daha çox aqressivləşdirə və zaman qazanmağa həvəsləndirə bilər".

**Rusiyanın yaranmış fürsətdən istifadə edib Ukrayna ilə bərabər digər Baltikyanı və Balkan ölkələrindən də qisas almaq fikrinə düşə biləcəyindən ehtiyatlanan Heydər Oğuz ABŞ-ın da onu ekskalasiyaya həvəsləndirməsinin mümkünlüyünə inanır:** "Açığı, ABŞ-ın müharibənin tezliklə bitirilməsində maraqlı olduğunu sanmıram. O, çalışdığı qədər Avropa ilə Rusiya arasındakı gərginliyi artırmaqda maraqlıdır. Çünki Avropa ilə Rusiya arasında gərginlik nə qədər çox davam edərsə, həm Çinin bu qitəyə marşrutu üzərində böyük əngəllər yaranacaq, həm Avropa ölkələri ondan daha çox silah alacaq, həm də Avropa ABŞ-a daha çox sığınıb onun hegemonluğu altına girəcək. ABŞ Dövlət Departamentinin sözçüsü Metyu Millerin bu təklif barədə fikirləri də göstərir ki, Vaşinqton Ukraynanın sülh axtarışlarından qətiyyən məmnun deyil. Miller açıqlamasında vurğulayıb ki, Ukrayna "diplomatik danışıqlara nə vaxt, necə və hansı formada başlayacağına özü qərar verir" və Birləşmiş Ştatlar "bu yolu seçsələr, dəstəkləyəcək". Bununla belə, o, "Kremlin əsl diplomatiyaya heç vaxt şəffav olmadığını" da sözlərinə əlavə edib.

❑ **E.MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**

**Suriya və İraq öz dövlət müstəqilliyini, ərazi bütövlüyünü itirmək təhlükəsini yaşayan əsas ölkələrdəndir. Bütövlükdə İraqa Səddam Hüseynin nəzarəti itirməsi bu ölkə üçün ciddi problemlər yaşadıb. 2017-ci ildə, edam edilməsindən 11 il sonra ölkə parçalanma təhlükəsi ilə üz-üzə qalmışdı.**

# Yaxın Şərqin Suriya düyünü: sülh hələ uzaqdadır - analiz



Səddam Hüseyn öldürüldükdən sonra İraqın şimalında kürdlərə yerli özünü idarəetmə hüququ verildi. Həmin yerli hökumət müstəqillik haqqında referendum keçirərək İraqın tərkibindən çıxmaq istədiklərini bəyan etdilər. Ancaq başda Türkiyə olmaqla regional dövlətlərinin sərt etirazı ilə qarşılandıqlarından bu iddiadan əl çəkdilər.

Səddam Hüseynin avtoritar rejimi, kor ərəb millətçiliyi, bəsit demokratik tədbirləri, milli hüquqları tapdaması və s. neqativ yanaşması İraqı istiqrarsız hala salıb. Bu ölkədə sülh və təhlükəsizlik müvəqqətidir. O, hər an pozula bilər və pozulur da. İraqın ərazi bütövlüyü də riskli vəziyyətdədir.

Suriyada vəziyyət bir qədər fərqlidir. "Ərəb baharı"nın dalğası bu ölkəyə də çatmışdı. Bu hadisə Suriyadakı rejimin başçısı Başər Əsəd hakimiyyətini devirməyi qarşısına qoysa da, ona müəssər ola bilmədi. Ətrafı daha çevik çıxdı. İran, Rusiya və Çinin yardımından faydalanaraq hakimiyyətinin qoruyub saxlaya bilib.

Bununla belə, ölkənin ərazi bütövlüyü təhlükəsi qalmaqdadır. Əsədin legitimliyi də beynəlxalq ictimaiyyət tərəfindən birmənalı şəkildə qəbul olunmur. 2021-ci il mayın 28-də prezident seçkisi keçirib. Avropa İttifaqı, ABŞ və Böyük Britaniya, müxalifət bu siyasi kampaniyanı və nəticələrini tanımayıb. Onda Avropa İttifaqı Əsəd hakimiyyətinə qarşı mövcud sanksiyanın müddətini uzatmışdı. Rusiya Prezidenti Vladimir Putin isə onu yenidən seçilməsi münasibətilə təbrik edib. Bununla da müharibə vəziyyətində olan Suriyada Əsəd "95,1 faiz səs toplamaqla" dördüncü dəfə prezident olub.

2000-ci ildən bu postu tutan Əsəd rejimi İran və Rusiyanın yardımı ilə ölkə ərazisinin 60 faizinə nəzarət edir. Suriyanın şimal-qərbi onun hakimiyyətinə qarşı olan üsyançıların, şimal-şərqi isə PKK/YPG-PYD terror qruplaşmasının əlindədir.

Suriyanın bir hissəsində parlament seçkiləri keçirilib. Sonuncu belə siyasi kampaniya 2000-ci ildə keçirilib. Onda Əsədin başçılıq etdiyi "Bəəs" Partiyası 166 yer, 17-sini onunla müttəfiq partiyalar, 67-sini isə müstəqil namizədlər qazanmış sayılmışdı. Bu seçkilərdə isə 250 yer uğrunda 1516 namizəd mübarizə aparıb. Qərb ölkələri və müxalifət seçkilərin azad, şəffaf və ədalətli keçmədiyini bildirib.

Yeni seçilən parlamentin əvvəlki kursu davam etdirməklə yanaşı, konstitusiyada dəyişiklik ediləcəyi, Əsədin prezidentlik müddətini uzadacağı gözlənilir. Onun səlahiyyət müddəti 2028-ci ildə başa çatır. Mövcud qanunlara görə, o, namizədliyini təkrar irəli sürə bilməz. Odur ki, konstitusiyada dəyişiklik edilməsi istisna olunmur.

Bu siyasi kampaniyada da ölkənin şimal-qərb və şimal-şərq bölgələri iştirak etməyib. İraqın şimalında oynanılan oyun indi də Suriyanın kürdlərin sıx məskunlaşdığı bölgəsində aparılır. Bu il mayın 30-da PKK/YPG-PYD terror qruplaşması nəzarəti altında olan bu ərazidə yerli "seçkilər" keçirəcəyini elan etmişdi. Ancaq müxtəlif səviyyəli təzyiqlərdən sonra onlar bu tədbiri iyunun 11-ə ertələmişdi. "Şimal və Şərqi Suriyanın idarə edənlər" iyunun 6-da "seçkiləri avqust ayında keçirəcəklərin" elan ediblər.

Bu bölgədə bələdiyyə seçkiləri 2015-ci ildə keçirilib.

Suriyanın şimalındakı siyasi, silahlı qüvvələr "seçkiləri" keçirməyə nail olsa, o zaman ölkəni şimalı hissəsinə rəsmi Dəməşq nəzarəti tamamilə itirə bilər. Çünki "bu hökumət" sonrakı mərhələdə "müstəqillik haqqında referendum" keçirməyə cəhd göstərəcək. ABŞ və qərb ölkələri onları müdafiə edir, silahlandırır. Həmin silahlı qüvvələr Suriyanın neftlə zəngin ərazilərinə nəzarət edir. Bu isə Ştatlar və onun müttəfiqlərinin həmin qruplaşmaya etibarının səviyyəsindən xəbər verir. Oxşar hadisə İraqda da baş verib. Ölkənin şimalındakı yeli özünü idarəetmə hökuməti mərkəzi hakimiyyətdəki başıpozuqluqdan istifadə edərək bir neçə ilə nəzarətləri altında olan ərazilərdən neft hasil edərək onu "qara bazara" çıxarmışdılar. Sonralar bu hadisə Bağdad hakimiyyəti ilə onlar arasında ciddi narazılığa səbəb olmuşdu. Onda İraqın mərkəzi hökuməti şimal bölgəsinə silahlı qüvvə yeridəcəyini bildirmişdi. Ancaq şimaldakılar rəsmi Bağdadla hesablaşmalı olub.

Rəsmi Ankara İraq və Suriyanın ərazi bütövlüyünü tanıdığını qəti şəkildə bəyan edib. Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan isə "Suriyada bir terrorçu dövlətin qurulmasına icazə verməyəcəklərini" bildirib. Düzdür, Əsədin müdafiəçiləri, o cümlədən Rusiya Suriyanın federallaşmasına razılıq verməyib.

Suriyada vətəndaş müharibəsi bitməyib. Vətəndaş savaşının iştirakçıları bunlardır: Əsədin nizamlı silahlı və yarımhərbi qüvvələr (Suriya Ərəb Silahlı Qüvvələri, Milli Müdafiə Qüvvələri və s.), "mötədil" Suriya müxalifətinin birləşmələri, Azad Suriya Ordusu, ərəb sünni qəbilə qüvvələri, PKK/YPG-PYD, həmçinin müxtəlif növ islamçı və cihadçı terror qrupları, o cümlədən İŞİD, əl-Nusra Cəbhəsi (hazırda Heyət Təhrir əl-Şam) və s. Bu savaşa xaricdən çoxlu sayda könüllü də qatılır. Onları xarici dövlətlər silah-sursat, hərbi texnika və başqa avadanlıqlarla təchiz edir.

HƏMAS-ın İsrailə hücumundan sonra Suriya daha bir istiqamətdə döyüş meydanına dönüb. İsrail İranın İnqilab Keşikçiləri Qvardiyasının (Sepah) Əsədin nəzarəti altında olan ərazilərdəki hərbi qüvvələrinə qarşı əməliyyatlar keçirir. Bu da sabitlik sayılan bölgələrdə sakinlər təhlükəsizliyi üçün ciddi narahatlıq yaradır.

Ona görə Suriya üçün vacib sual budur: bu ölkəyə sülh nə vaxt gələcək, yaxud sülh niyə gecikir?

**Bəhs etdiyimiz və qeyd etmədiyimiz səbəblərdən bunun aşağıdakı səbəbləri təxmin etmək olar:**

*- beynəlxalq güclər Suriya ilə bağlı ortaq məxrəcə gəlməyib;*

*- ABŞ və müttəfiqləri Rusiya ilə İrana qarşı bu ölkədə müharibəni davam etdirir;*

*- İran Suriyadan özünü müdafiə məqsədi, İsrailə təzyiq üçün istifadə edir;*

*- terrorçu PKK qruplaşması alət rolunu davam etdirir;*

*- ölkədaxili və xaricindəki qüvvələri birləşdirəcək liderin yoxluğu;*

*- Suriyanın gələcəyi ilə bağlı qeyri-müəyyənliyin sürməsi;*

*- Qərblə Çin və Rusiya arasında ziddiyyətlərin davam etməsi;*

*- parlament və prezident adı altında keçirilən seçkilərin qıcıqlandırıcı olması;*

*- Suriyanı bütün qanunsuz silahlı, siyasi qüvvələrdən xilas edəcək qüvvənin olmaması, habelə bunu dəstəkləyəcək xarici faktorun yoxluğu və s.*

Bu və başqa belə səbəblər öz həllini tapmayanadək Suriyanın ərazi bütövlüyü təmin olmayacaq, qaçqınlar geri dönməyəcək, nəticədə sülh yaranmayacaq. Odur ki, sülh də yaxın görünmür.

**❑ Sədrəddin SOLTAN, Report.az**

# "Sui-qəsdin ardı gələcək..." - Bayden yox, Tramp seçkilərdən çəkilə bilər?

## Cümşüd Nuriyev: "ABŞ dünya mafiyalarının beşiyidir"



**"ABŞ prezidentliyinə namizəd Donald Tramp sui-qəsd nəticəsində öldürülsəydi, bu, ölkədə qan tökülməsinə və vətəndaş iğtişaşlarına səbəb olardı".**

Bu sözləri beynəlxalq hüquqşünas Klayn Preston deyib (Axar.az).

"Tramp ölsəydi, ölkə çox təhlükəli vəziyyətdə olardı, çünki biz indi son dərəcə parçalanmışıq", - o, RT-yə müsahibəsində bildirib.

Preston qeyd edib ki, bu, sabiq prezidentin həyatına ilk real sui-qəsd cəhdidir: "Bunun sonuncu olduğu ortaya çıxsa, çox təəccüblənəcəyəm. Düşünürəm ki, hər şey yeni başlayır".

Şübhəsiz, məlum olaydan sonra Trampın təhlükəsizliyi daha da gücləndiriləcək. Üstəlik, bunu təşkil etməyə onun maliyyə resursları da kifayət qədərdir. Lakin bütün bunlar onu qoruya biləcəkmi? Ümumiyyətlə, 100 faizlik qoruma, təhlükəsizlik varmı? Trampın seçkilərdən çəkilməsi mümkünmü?

**Politoloq Cümşüd Nuriyev "Yeni Müsavat"a deyib ki, ABŞ dünya mafiyalarının beşiyidir:** "ABŞ-da bu günə qədər 3 prezident öldürülüb, 3 prezidentə də sui-qəsd olub. Donald Trampa olan sui-qəsd ağıldan uzaq bir cinayətdir. Nə qədər ki, Bayden hakimiyyətdədir, bu cinayətin üstü açılmayacaq. Bu cinayət onun komandasından gələn sifarişlə icra olunub. Sui-qəsddən 1 gün sonra Respublikaçılar namizəd irəli sürəcəkdilər. Co Baydenin ağlı ilə Bakı küləyi arasında fərq yoxdur. Gah xəzri olur, gah da gilavar".

**Politoloq deyir ki, dünyada ABŞ-ın demokratik ölkə kimi tanınmasına baxmayaraq, bu ölkə demokratik deyil:** "ABŞ 2015-ci ildə Milli Təhlükəsizlik Strategiyasını qəbul edib. Həmin strategiyada yazılıb ki, nəyin bahasına olursa-olsun, dünyaya ən güclü dövlət olduğumuzu sübut etməliyik. ABŞ-da Makiavellizm - əxlaqsızlıq siyasəti olduqca inkişaf edib.

Zbiqnev Bjezinski özünün "Böyük şahmat taxtası" kitabında yazır ki, demokratiya - bizim üçün başqa dövlətləri sıxmaq və öz məqsədlərimizə çatmaq bir yol, metoddur. Sui-qəsdləri tətikləyən isə mafiyaların üz-üzə gəlməsidir. Hazırda ABŞ-da ingilis-irland mafiyası ilə yəhudi mafiyası üz-üzə gəlib. Dərin dövlət - yeni yəhudi mafiyası digər mafiyalarla döyüş mövqeyinə çıxıb. Bu baxımdan ABŞ-da sui-qəsdlərin davam edəcəyini gözləyirəm".

**Politoloq bildirib ki, ABŞ-da mafiyalararası dialoq tükənib və bu halda silahlar yalnız mafiyalardan birinin qalib gəlməsi halında dayana bilər:** "Ümumiyyətlə, 100 faizlik qoruma, təhlükəsizlik yoxdur. Müasir dünyada bu çox çətin məsələdir. Çünki silahlar hər ötən gün daha da təkmilləşir, daha müasir olur. Bu baxımdan təhlükəsizlik məsələləri də getdikcə daha çətin hal alır. Donald Trampın 1 sui-qəsddən sağ çıxması onun ikinci və üçüncü sui-qəsdlərin qurbanı olmayacağını söyləməyə əsas vermir. ABŞ-da bu günə qədər 3 prezidenti sui-qəsdlə öldürüblərsə, dördüncüsü də bundan sığortalanmayıb".

**❑ E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
Son səhifə
N 123 (8496) 17 iyul 2024
iyul

# Kardioloqlar və endokrinoloqlar qəhvənin faydaları haqqında: isti, yoxsa soyuq?



**İsti qəhvənin tərkibində soyuğa nisbətən daha çox antioksidant - orqanizmdə iltihabı azaldan xüsusi molekullar var.**

Bu barədə tanınmış amerikalı kardioloq Macid Basit və endokrinoloq Eva Kvinar danışıb. M.Basitin sözlərinə görə, antioksidantlar - sərbəst radikalları aradan aparan təbii birləşmələrdir. Sərbəst radikallar toplanması hüceyrələrə zərər verir və ürək xəstəlikləri, Altsheymer xəstəliyi, böyrək çatışmazlığı və xərçəng kimi təhlükəli sağlamlıq problemlərinə səbəb olur. İsti qəhvə də bu sərbəst radikalları effektiv şəkildə aradan qaldırır. Kardioloq içkinin soyuq variantında antioksidantların daha az olduğunu vurğulayıb.

## Həkim şəkərdən daha təhlükəli 3 məhsulun adını açıqladı



**Şəkərin orqanizm üçün əsl "zəhər" olduğu barədə artıq hamı məlumatlıdır. Ancaq bəzi qidalar sağlamlığımıza şəkərdən daha çox zərər vura bilər. Bu barədə "Gazeta.Ru"ya müsahibəsində endokrinoloq Ancela Tolmasova danışıb.**

O, karbohidratları və yağları birləşdirən, əlavə olaraq da duz və şəkər ehtiva edən qidaların çox təhlükəli olduğunu bildirib. "Ən pis seçim emal olunmuş ət məhsullarıdır (bekon, kolbasa, sosis və s). Onları yağsız zülallar, meyvələr, tərəvəzlər, göyərti, çərəz və toxumlarla əvəz etmək lazımdır. İşlənmiş qidalar piylənməyə səbəb olur".

Həkim bu cür qidaların menyudan çıxarmaq üçün əsas 3 səbəbi açıqlayıb: "Birincisi, ürək və qan damarlarına zərər verir, təhlükəli xəstəliklərə səbəb olur. İkincisi, belə qidalar qan təzyiqi və yüksək xolesterolla əlaqələndirilir. Üçüncüsü isə emal edilmiş ət məhsulları kanserogenlər kimi təsnif edilir. Məsələn, hisə verilmiş kolbasanın müntəzəm istehlakı xərçəngə tutulma riskini artırır".

O, qida rasionunda ağ çörəyin, şəkərli və qazlı içkilərin, eləcə də "fast food"ların olmasının da narahatlıq yaratdığını bildirib: "Qazlı içkilər artıq çəki, piylənmə, ağ çörək diabet, kartof qızartması isə ürək üçün alava risklərlə əlaqələndirilir".

Endokrinoloq alkoqolun da sağlamlıq üçün böyük risk yaratdığını qeyd edib. O, spirtli içkilərdən tamamilə imtina etməyə hazır olmayanlara həkim alkoqolsuz və ya az alkoqollu şərablar, eləcə də pivə ilə kifayətlənməyi məsləhət görüb: "Nə qədər az spirt içsək, bir o qədər yaxşıdır. Bu, qaraciyərin və mədəaltı vəzin yükünü azaldacaq".

Ancela Tolmasova vurğulayıb ki, zərərli qidaları tamamilə qadağan etmək deyil, daha sağlam və aşağı kalorili qidalara üstünlük vermək vacibdir. "Mütəxəssislər tez-tez pəhrizdə lifin faydalarını xatırladırlar. Lifin çatışmazlığı bağırsaqlarda pozğunluqlara səbəb olur. Əgər kifayət qədər lifli qidalar yeyirsinizsə və çoxlu su içirsinizsə, orqan disfunksiyası ehtimalınız əhəmiyyətli dərəcədə azalacaq", - deyə həkim nəzərə çatdırıb.

# Ayda mağara kəşf edildi



**Alimlər ilk dəfə Ayda mağara aşkar ediblər. Ən azı 100 metr dərinlikdə olan bu mağara insanlara daimi baza yaratmaq üçün ideal yer ola bilər.**

Kosmosa çıxan ilk britaniyalı astronavt Helen Şarman bu mağaranın baza üçün uyğun göründüyünü və insanların 20-30 il ərzində Ayda çuxurlarda yaşaya biləcəyini iddia edib.

O, həmçinin qeyd edib ki, bu mağara çox dərin olduğundan ora enmək üçün ipdən və ya liftdən istifadə etmək lazım ola bilər. Mağara milyonlarla il əvvəl lavaların Ayda axması ilə əmələ gələn tunellər nəticəsində yaranıb.

Bu kəşf insanın Ayda daimi mövcudluğu istiqamətində mühüm addım ola bilər. Eyni zamanda Ayın tarixi ilə bağlı fundamental suallara da cavab verə bilər. Tədqiqat "Nature Astronomy" jurnalında dərc olunub.

## Dərin yuxunu təmin edən pəhriz

**Aralıq dənizi pəhrizi yuxunu normallaşdırır, daha dərin və rahat yuxu təmin edir.**

Bunu dietoloq Tatyana Solntseva deyib. O bildirib ki, Aralıq dənizi pəhrizində çoxlu bitki mənşəli qidalar, zeytun yağı, balıq, eləcə də digər dəniz məhsulları var.

"Bundan əlavə, pəhrizdə sadə karbohidratlar da qadağan deyil. Bu tərkibdə olan qidaları da minimal miqdarda yemək olar. Araşdırmalara görə, bu tip pəhrizə riayət edən insanların yuxusu daha keyfiyyətli olur", - deyə dietoloq qeyd edib.

Onun sözlərinə görə, belə qidalanma bədəni sinir sisteminə, yuxuya getmə prosesinə və müvafiq olaraq yuxu keyfiyyətinə təsir göstərən minerallarla təmin edir. "Yuxu keyfiyyətinə aktiv həyat tərzi, həmçinin yatmazdan beş saat əvvəl kofeinli içkilər içməyi dayandırmaq da müsbət təsir göstərir", - Tatyana Solntseva vurğulayıb.

Mütəxəssis həmçinin axşam yeməyində yağlı yemək yeməməyi tövsiyə edib. O, qida rasionuna zülal və lif daxil etməyin də yuxu keyfiyyətini artırdığını diqqətə çatdırıb. Qeyd edək ki, daha öncə fizioloq Aleksandr Sozikin sağlam yuxu üçün qida rasionuna albalı əlavə etməyi məsləhət görüb. "Bundan əlavə, D3, C, E vitaminləri və fol turşusu faydalı təsir göstərir", - deyə mütəxəssis vurğulayıb.

# Bunları bilirsinizmi?

* Sizə istidirsə, dirsəklərinizi soyuq suya salın.
* Dəri qış ərzində bir qədər solur və təravətini itirir, bunun qarşısını almaq üçün duş qəbulu zamanı dərini bərk sürtmək və təzadlı (gah soyuq, gah da isti) duş qəbul etmək lazımdır. Bu, qan dövranını yaxşılaşdırır və solğunluğu aradan qaldırır.
* Əlləriniz çox kobudlaşmış, dırnaqlarınız sınmışsa, isidilmiş günəbaxan yağında 10-15 dəqiqə saxlayın. Sonra isə əllərinizi yumayın, salfetlə silin.
* Əllər ağarsın deyə onları sirkə tökülmüş ılıq suda saxlamaq lazımdı. Qədim xalq təbabətinə görə çiy süd və ya limon şirəsi qatılmış su ilə vanna etmək yaxşı kömək edir.
* Yanmış yerə yumurta ağında isladılmış bez qoyurlar, bu ağrını azaldır və yara daha tez sağalır. Hətta yanmış yerə tünd çay, tünd bənövşəyi manqan (marqans) məhlulu çəkmək olar.
* Yatarkən başınızın altına hündür balış qoymayın, yoxsa boynunuz tez qırışar.
* Soda tam neytrallaşsın deyə xəmir yoğurarkən sodanın üstünə bir az sirkə, ya da limon şirəsi tökmək lazımdır. Sodalı xəmiri çox yoğurmurlar, çünki yapıxır və yumşaq olmur.
* Əgər xəmirin tez acımasını istəyirsinizsə, xəmirə bir neçə makaron batırın.
* Əti saxlamaq istəyirsinizsə, yumayın, çünki yuyanda tez xarab olur.
* Əti bişirərkən yaxşı bulyon almaq istəyirsinizsə soyuq suya, ətin özünün dadlı olmasını istəyirsinizsə, isti suya salın.
* Əti bişirməmişdən əvvəl duzlamayın, çünki duzdan onun şirəsi çıxır bu da onun keyfiyyətinin itməsinə səbəb olur.
* Çayırdəkli meyvələrdən bişirilmiş kompotları 1 ildən artıq saxlamaq olmaz. Çünki çəyirdəkdə qaldıqca həyat üçün təhlükəli olan sianid turşusu əmələ gəlir.
* Büzüşmüş almaları bir neçə saatlığa soyuq suda saxlasanız, almalar əvvəlki görkəmini alar.

# Növbəyə görə kişinin gözünü çıxartdı - 6 il həbs




**Ötən ilin mayında Gəncə şəhərində 1975-ci il təvəllüdlü Emin Məmmədovun gözünü çıxaran şəxsə hökm oxunub.**

1984-cü il təvəllüdlü Elçin Fərhadzadə Cinayət Məcəlləsinin 126.2.4-cü (Xuliqanlıq niyyəti ilə qəsdən sağlamlığa ağır zərər vurma) maddəsi ilə hadisəni törətməkdə təqsirli bilinib. Məlum olub ki, həmin gün saat 20 radələrində Elçin Gəncə şəhər Azərbaycan küçəsində yerləşən "Brand shop" mağazasının qarşısındakı ödəmə terminalına yaxınlaşıb. O, terminalın qarşısında növbə tutan Emindən yerlərini dəyişdirməyi istəyib. Lakin Emin növbəsini Elçinə güzəştə getməyib. Bundan sonra Elçin Eminin terminaldan pul çıxarmaq istədiyini görüb və ona terminalda nağdlaşdırma funksiyasının olmadığını deyərək irad bildirib. Tərəflər arasındakı mübahisə daha sonra terminaldan kənarda davam edib. Bu zaman Elçin yumruqla Eminə zərbələr endirib. Nəticədə Eminin eynəyi sınaraq sağ gözünə batıb.

Ekspertiza Eminə gözünün buynuz qişasının dəlib keçmiş yaralanması, gözün möhtəviyyatının tökülməsi, hemoftalm, göz qapaqlarının, alt dodağın yaraları ilə müşayiət edilən sağ gözdə görmənin itirilməsi ilə əlaqədar ümumi əmək qabiliyyətinin üçdə bir hissəsindən çox olmaqla əhəmiyyətli dərəcədə dayanıqlı itirilməsinə səbəb olan xəsarətlər diaqnozu qoyub.

Məhkəmədə Emin Məmmədov artıq Elçini bağışladığını və onunla barışdığını bildirib. Gəncə Ağır Cinayətlər Məhkəməsinin bir neçə gün əvvəl çıxardığı hökmlə Elçin Fərhadzadəyə 6 il həbs cəzası verilib.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazim SABİROĞLU
e-mail adres: yenimusavat@mail.ru
"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dəqiqə" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)
Lisenziya N: B 114
SAYI: 1.500